QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 133 (5853) **25 iyul** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Aqrar sektorun inkişafına dövlət dəstəyi siyasəti davamlı xarakter alıb

*Prezident İlham Əliyev: "Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, aqrar sahənin inkişafı gündəlikdə duran əsas məsələlərdən biridir"*

Səh 3



2

XİN: "Avstraliya Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləyir"



5

Çinin nümayəndə heyəti Bakı Beynəlxalq Dəniz Ticarəti Limanında olub



6

Uçuruma yuvarlanan xunta



# “Azərbaycanın üçüncü süni peykinin orbitə buraxılması mühüm hadisədir”

## *Prezident İlham Əliyev Beynəlxalq Astronavtika Federasiyasının prezidentini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 24-də Beynəlxalq Astronavtika Federasiyasının prezidenti, Fransa Kosmik Agentliyinin rəhbəri Jan-İv Lö Qalı qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanda kosmik sənayenin inkişafında əldə edilən uğurlar qeyd olundu, yüksək texnologiyaların, o cümlədən kosmik sənayenin ölkəmizdə prioritet sahələrdən biri olduğu bildirildi, Azərbaycanın artıq üçüncü süni peykinin orbitə buraxılması mühüm hadisə kimi dəyərləndirildi və ölkəmizin dünya kosmik ailəsinin üzvü olmasının əhəmiyyəti vurğulandı.

Söhbət zamanı Azərbaycanla Fransa arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən kosmik sənaye sahəsində uğurla inkişaf etdiyi bildirildi, eyni zamanda, ölkəmizin Beynəlxalq Astronavtika Federasiyası ilə də əməkdaşlığının genişləndirilməsindən məmnunluq ifadə olundu.

Görüşdə əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## Rəsmi xronika

Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının yeni Baş naziri Boris Consonu təbrik edib. Təbrikdə deyilir: “Hörmətli cənab Baş nazir,

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. Biz Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı münasibətlərin inkişafına böyük əhəmiyyət veririk. Bu mənada qarşılıqlı səmərəli əməkdaşlığımız məmnunluq doğurur.

Neft-qaz hasilatı və nəqli sahəsindəki əməkdaşlığımızı xüsusi qeyd etmək istərdim. Enerji sektorunda uzun illərdən bəri müvəffəqiyyətlə davam edən birgə fəaliyyətimiz, gerçəkləşdirdiyimiz irimiqyaslı transmilli layihələr qlobal enerji təhlükəsizliyinin təmin edilməsinə böyük töhfədir.

İnanıram ki, qarşılıqlı maraqlarımıza uyğun olaraq Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı münasibətlərin inkişafı istiqamətində Sizinlə birgə səylər göstərəcəyik. Sizə ən xoş arzularımı yetirir, qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm”.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Vergilər Nazirliyinin strukturunun təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikasında gənclərlə iş və idman sahəsində çalışan şəxslərin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev “Dövlət rüsumu haqqında” və “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1620-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

# Prezidentin Fərmanının icrası davam etdirilir

Azərbaycan Respublikası Prezidentinin növbəti humanist addım olaraq imzaladığı “Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında” 2019-cu il 19 fevral tarixli 529 nömrəli Fərmanının icrası ilə əlaqədar Fövqəladə Hallar Nazirliyi (FHN) və digər aidiyyəti dövlət qurumları tərəfindən zəruri tədbirlər davam etdirilir.

FHN-dən AZƏRTAC-a bildiriblər ki, görülmüş tədbirlər nəticəsində ötən 5 ay ərzində ümumi sahəsi 1.928.897 kvadratmetr olan 19551 mənzilli, ümumilikdə 317 girişli 116 binaya (kompleksə) dair müsbət rəy verilib. 114-ü Bakı şəhəri, 1-i Abşeron rayonu, 1-i isə Gəncə şəhərində yerləşən bu binalara dair sənədlər komplektləşdirilərək, müvafiq qaydada onların istismara hazır olması barədə tərtib edilmiş rəy aidiyyəti üzrə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, Abşeron Rayon və Gəncə Şəhər İcra hakimiyyətlərinə təqdim olunub.

Aparılmış müayinələr nəticəsində aşkar edilən çatışmazlıqların aradan qaldırılması üzrə işlərin Fərmanla müəyyən olunmuş vaxtda başa çatdırılmasının təmin edilməsi, bu istiqamətdə qarşıya çıxan məsələlərin operativ həlli üçün birgə fikir mübadiləsinin aparılması məqsədilə cari il iyulun 1-də, 5-də və 12-də Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin binasında müvafiq xidmətlərin rəhbər şəxslərinin iştirakı ilə çoxmənzilli yaşayış binalarının nümayəndələri ilə növbəti görüşlər keçirilib. Bu görüşlər zamanı 110 binanın təmsilçisi qəbul edilib, hər bir bina üzrə mövcud vəziyyət təhlil edilib, nöqsanların aradan qaldırılması məqsədilə görüləcək işlər və müvafiq xidmətlər tərəfindən köməyin göstərilməsi imkanları nəzərdən keçirilib. Bu formatda görüşlərin keçirilməsi müsbət qiymətləndirilərək belə tədbirlərin davam etdirilməsi qərara alınıb. Fərmandan irəli gələn məsələlərin icrası davam etdirilir və görülən işlər ölkə başçısının nəzarəti altındadır.

# XİN: “Avstraliya Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləyir”




Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat katibi Leyla Abdullayeva Avstraliyanın Rayd şəhər Şurasında Azərbaycan Respublikasının Ermənistan Respublikası tərəfindən işğal edilmiş Xankəndi şəhəri ilə “dostluq əlaqələrinin yaradılması”na dair sənədin qəbul edilməsi ilə bağlı açıqlama verib.

Trend-in sorğusuna cavab olaraq XİN rəsmisi bildirib ki, Rayd Avstraliyanın ən çox erməni əsilli vətəndaşının cəmləşdiyi şəhərdir: “Təsadüfi deyil ki, cəmi 2 nəfər tərəfindən qəbul edilmiş sözügedən sənədin layihəsi Rayd şəhər Şurasının məhz erməni əsilli üzvü Sarkis Yedelyan (Sarkis Yedelian) tərəfindən irəli sürülüb və şəhərin meri Cerom Laksal tərəfindən dəstəklənib.

L.Abdullayeva xatırladıb ki, Avstraliya Federal Hökuməti Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləyir: “Avstraliyanın inzibati ərazi vahidlərinin yerli icra hakimiyyəti və ya qanunverici orqanları tərəfindən ermənilərin lobbiçilik səyləri əsasında qəbul olunan bu kimi sənədlərə gəldikdə isə vurğulamaq istərdim ki, belə sənədlər hüquqi nöqteyi-nəzərdən heç bir əhəmiyyət kəsb etmir və yalnız müəyyən dairələrin və ya lobbi qruplarının maraqlarına xidmət edən kağız parçasıdır”.

# Aqrar sektorun inkişafına dövlət dəstəyi siyasəti davamlı xarakter alıb

## *Prezident İlham Əliyev: "Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, aqrar sahənin inkişafı gündəlikdə duran əsas məsələlərdən biridir"*



***Etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Bu baxımdan, Azərbaycan dövləti əhalisinin ərzaqla etibarlı təminatına dair çoxyönlü tədbirlər həyata keçirir və ərzaq təhlükəsizliyinin birbaşa asılı olduğu aqrar sahənin inkişafına yönələn irimiqyaslı dövlət proqramları həyata keçirir. Hazırda ölkədə əhalinin etibarlı ərzaq təminatı dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir.***

Bu günlərdə Prezident İlham Əliyevin "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" imzaladığı Fərman bir daha dövlətin aqrar sektorun inkişafına növbəti dəstəyinin təzahürüdür. Bu Fərmanla təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"na əsasən, bitkiçilik sahəsində subsidiyaların hesablanmasında istifadə olunan baza məbləği 200 manat müəyyən edilir. Bununla da, Kənd Təsərrüfatı Nazirliyinə tapşırılır ki, "Subsidiya" informasiya sisteminin yaradılmasını və bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş Qaydaya uyğun olaraq subsidiyaların 2020-ci il yanvarın 1-dən etibarən verilməsini təmin etsin.

### Bu Fərman aqrar sahənin inkişafına hansı tövsiyələri verəcək?

İqtisadçı-alim Vüqar Bayramov "SƏS" qəzetinə verdiyi açıqlamasında bildirib ki, subsidiyaların verilməsi ilə bağlı imzalanan Fərman, aqrar sektorun inkişafı baxımından, yeni bir mərhələ kimi qiymətləndirilməlidir: "Sənəd, subsidiya mexanizmlərini təkmilləşdirməklə yanaşı, fermerlərin subsidiyalara əlçatanlığının təmin edilməsinə də xidmət edir. Sənədə əsasən, subsidiya informasiya sistemi formalaşdırılacaq. Əvvəlki qaydalarda fermerlər il ərzində, yerli və mərkəzi icra hakimiyyəti orqanlarına müraciət edirdilər ki, bu da uzun proses idi. Yeni mexanizm, birmənalı şəkildə imkan verəcək ki, fermerlər elektron qaydada subsidiyaların alınması ilə bağlı müraciət etsinlər. Müraciətlərə baxışlar elektron qaydada həyata keçiriləcək ki, bu da, qısa müddət ərzində, onların işini həllinə qovuşduracaq. Subsidiyaların verilməsi ilə bağlı agentlik tərəfindən qərar qəbul edildikdən sonra növbəti ildə fermerin müraciətində dəyişiklik olarsa, onun yenidən müraciət etməsinə ehtiyac olmayacaq. Çünki məlumatlar elektronlaşacaq. Digər vacib məqamlardan biri aqrar sektorda istehsalın regionlar və məhsullar üzrə təşviqinə nail olunmaqdan ibarətdir. Fərmana əsasən, əkin və məhsul əmsalları müəyyənləşdirilərək tətbiq ediləcək və baza qiymətinə vurularaq əkinçilik və eləcə də, məhsul istehsalına əsasən, subsidiyanın məbləği müəyyən ediləcək".

### Son 16 ildə Azərbaycanda aqrar sahədə uğurlu nailiyyətlər

"Bu illər ərzində görülən işləri sadalamaq istəsək, o zaman bunun üçün bizə 15 gün belə az olar. Çünki bu illər ərzində, milli iqtisadiyyatın bazar prinsipləri əsasında qurulması istiqamətində məqsədyönlü siyasət həyata keçirilib, regionların və ayrı-ayrı iqtisadi və sosial sahələrin inkişafına dair dövlət proqramları uğurla icra olunub, ölkə əhalisinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yaxşılaşıb". Bu fikirləri "SƏS" qəzetinə açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Eldar İbrahimov deyib. O bildirib ki, dövlət başçısı İlham Əliyev prezidentliyinin ilk ilindən başlayaraq, ölkə iqtisadiyyatının şaxələndirilməsi hesabına neftdən asılılığı azaltmaq üçün qeyri-neft sektorunun və onun əsas sahələrindən olan aqrar sektorun inkişafını təmin etməyi əsas vəzifə kimi müəyyən edib: "Məhz Prezidentin 2004-cü il 11 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" bu problemin həllində əsaslı dönüş yaradıb. Belə ki, regionların sosial-iqtisadi inkişafına dair ilk dəfə qəbul edilmiş bu Dövlət Proqramı çox uğurla həyata keçirilmiş, ölkə ərazisində sosial-iqtisadi inkişafın təmin edilməsi üçün, ilk növbədə, daha çox ehtiyac duyulan infrastruktur və emal sənaye obyektlərinin yaradılması, habelə, digər sahələrin inkişafını təmin edən tədbirlər icra edilib.

E.İbrahimov vurğulayıb ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkə iqtisadiyyatının neftdən asılılığını azaltmaq üçün qeyri-neft sektorunun və onun əsas sahələrindən biri olan aqrar sektorun inkişafı prioritet istiqamət kimi önə çəkilib: "Təkcə aqrar sahədə çalışan sahibkarlara Azərbaycan Prezidenti tərəfindən tətbiq edilən vergi güzəştləri 2 milyard manatdan çox vəsaitin sahibkarlarda qalmasına şərait yaradıb: "Bu da, təbii ki, kənd təsərrüfatının inkişafı üçün mühüm addımdır. Bundan əlavə, Milli Fonddan təkcə aqrar sahibkarlığa 1 milyard manatdan çox vəsait ayrılıb. Bu, əlbəttə, kənd təsərrüfatı sahələrinin genişlənməsinə xidmət edir".

Komitə sədri söyləyib ki, son 16 ildə kənd yollarının tikintisi, rayonlarda aqrar sahə ilə bağlı tikilən müəssisələr və digərləri aqrar sahənin inkişafına xidmət edir: "Bu gün abadlaşan bölgələrimiz, dünyanın ən gözəl şəhərlərindən birinə çevrilən Bakı, tikilən 3 mindən artıq məktəb, 600-dən çox xəstəxana, 50-dən çox Olimpiya Mərkəzi, çəkilmiş 11 min kilometrdən çox yol, 250 mindən çox köçkün üçün salınmış 100-ə yaxın təzə qəsəbə, yeni yaradılmış enerji infrastrukturu, dinamik inkişaf edən və şaxələndirilən iqtisadiyyat - bütün bunların təməlində neftdən əldə edilən gəlirlərdən səmərəli istifadə etməyə yönəlmiş sistemli islahatlarla daim təkmilləşən iqtisadiyyatın Azərbaycan modeli dayanır. Bu modelin bünövrəsi Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və İlham Əliyev tərəfindən müasir tələblərə uyğun modernləşdirilərək inkişaf etdirilib".

### 16 ildə kənd təsərrüfatı məhsullarının ixracı 6 dəfə artıb

Son illər Azərbaycanda qeyri-neft sektoruna göstərilən yüksək diqqətin nəticəsi kimi, iqtisadiyyatın aparıcı sahələrindən olan aqrar sahə keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu sahədə ciddi addımların atılması ölkə iqtisadiyyatının neftdən asılılığının tədricən aradan qaldırılması, sosial dayanıqlılığının, ərzaq təhlükəsizliyinin etibarlılığının artırılması, iqtisadiyyatın şaxələndirilməsi yüksək ixrac potensiallı qeyri-neft sektorunun inkişaf etdirilməsi baxımından, mühüm əhəmiyyət kəsb edir.

Bütün bunlar özünü pambıqçılığın, tütünçülüyün, fındıqçılığın və baramaçılığın inkişafında da göstərir. İxracatda da həmin ənənəvi sahələrin çəkisi ildən-ilə artır, əhalinin məşğulluq səviyyəsi yüksəlir. Kənd təsərrüfatının inkişafında tütünçülük, baramaçılıq, fındıqçılıq, üzümçülük və pambıqçılıq kimi sahələr xüsusi yer tutur. Bu sahələrin inkişafına xüsusi diqqət yetirən dövlətimizin başçısı dəfələrlə vurğulayıb ki, bütün bunlar Azərbaycan üçün ənənəvi kənd təsərrüfatı məhsullarıdır. Həmin sahələrin inkişaf etdirilməsi ölkəmiz üçün əhəmiyyətli sosial amildir.

Azərbaycan Prezidenti İlham Əliyev regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfransdakı nitqində bildirib ki, bundan sonra da kənd təsərrüfatında islahatlar dərinləşməli, bu sahə elmi əsaslarla inkişaf etməlidir: "Müasir texnologiyalar, yanaşmalar tətbiq olunmalıdır. Biz ərzaq təhlükəsizliyi ilə bağlı bundan sonra da mütləq ciddi iş aparmalıyıq, bu, prioritet məsələdir. Məhsuldarlığın artırılması istiqamətində işlər görülür. Hesab edirəm ki, bu, yaxın gələcəkdə özünü göstərəcək. Biz kənd təsərrüfatı məhsullarının ixracını artırmalıyıq. Düzdür, son 15 il ərzində, kənd təsərrüfatı məhsullarının ixracı təxminən 6 dəfə artıb. Ancaq potensial da böyükdür və biz yeni bazarlara çıxmalıyıq. Ticarət evləri açılır, ixrac missiyaları göndərilir, dövlət tərəfindən sahibkarlara çox böyük dəstək verilir ki, onlar öz məhsullarını xaricdə sata bilsinlər. Əlbəttə ki, aqroparkların da çox böyük əhəmiyyəti var. Artıq 250 min hektarda 51 aqropark yerləşib". Hazırda ölkəmiz bir çox strateji ərzaq məhsulları üzrə tələbatını yerli istehsal hesabına ödəyir. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir.



**RƏFİQƏ KAMALQIZI**

# Səhiyyə sistemində aparılan uğurlu islahatlar insanların sağlamlığına yönəlib



***Ölkəmizdə baş verən sürətli iqtisadi inkişaf bütün sosial sahələrin, o cümlədən, səhiyyənin inkişafına da əsaslı təkan vermişdir. Son illərdə dünya standartlarına uyğun inkişaf yolu tutmuş Azərbaycan səhiyyəsinin nüfuzu nəzərəçarpacaq dərəcədə artmışdır.***

Azərbaycan səhiyyəsinin müstəqilliyimizin ilk illəri ilə vəziyyətinin müqayisəolunmaz dərəcədə dəyişdiyini kimsə inkar edə bilməz. Məlumdur ki, müstəqilliyimizin ilk illərində bütün sahələrdə olduğu kimi, səhiyyədə də vəziyyət ürəkaçan deyildi. Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliyi və nüfuzu sayəsində, Azərbaycan səhiyyəsi inkişaf yoluna qədəm qoydu.



Müasir dövrümüzdə Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində, Azərbaycanın səhiyyə sistemində aparılan uğurlu islahatların bəhrəsini hər birimiz həyatımızda hiss edirik. Görülən işlər əhalinin dövlət tibb müəssisələrinə inamını getdikcə artırır. Azərbaycan Prezidenti İlham Əliyevin sonsuz qayğısı və diqqətinin məntiqi nəticəsi olaraq, iqtisadiyyatın inkişafı səhiyyədə də görülən işlərin daha böyük vüsətlə davam etdirilməsinə imkan yaratmışdır. Ölkənin dinamik iqtisadi inkişafı demoqrafik və tibbi statistik göstəricilərinin yaxşılaşmasına səbəb olmuşdur. Son 16 il ərzində ölüm göstəricisi azalmış, doğum və bununla bərabər, təbii artım göstəricisi yüksəlmişdir. Bu göstəricilərə görə, Azərbaycan Avropa ölkələri sırasında öndə gedir.

Təbii ki, ölkəmizdə iqtisadi sahədə həyata keçirilən köklü islahatlar makroiqtisadi sabitliyi təmin etməklə bərabər, əhalinin sosial müdafiəsini daha da gücləndirmək üçün möhkəm zəmin yaradıb. Azərbaycanda aparılan siyasətin mərkəzində, məhz insan amili dayanır və ölkə rəhbərliyinin sosial siyasətinin fəlsəfəsi bütün vətəndaşların sosial şəraitinin yaxşılaşdırılmasına xidmət edir.

### ÖLKƏMİZİN HƏR YERİNDƏ ƏHALİNİN TİBBİ XİDMƏTLƏRLƏ KEYFİYYƏTLİ ŞƏKİLDƏ TƏMİN OLUNMASI ÜÇÜN YENİ MÜƏSSİSƏLƏR YARADILIB

Son illər Azərbaycan Prezidenti İlham Əliyevin səhiyyənin inkişafı ilə bağlı həyata keçirdiyi məqsədyönlü siyasət və imzaladığı sərəncamlar bu sahənin keyfiyyət və kəmiyyət göstəriciləri ilə zənginləşməsinə səbəb olub. Səhiyyə ilə bağlı mühüm dövlət proqramlarının hazırlanaraq həyata keçirilməsi, əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə əhatə olunması bu istiqamətdə aparılan siyasətin əsas prioritetləridir. Vətəndaşların pulsuz dərman vasitələri və preparatlarla təchiz olunması, müalicəsi və müayinəsi regionlarda diaqnostika mərkəzlərinin tikilərək istifadəyə verilməsi, uşaqların bütün növ tibbi xidmətlərlə ən yüksək səviyyədə əhatə olunması səhiyyə sahəsində islahatların əsasını təşkil edir. Ölkəmizin hər yerində əhalinin tibbi xidmətlərlə keyfiyyətli şəkildə təmin olunması üçün bütün növ müayinə-müalicəni və əməliyyatları həyata keçirməyə imkan verən yeni müəssisələr yaradılmışdır. Ölkəmizdə 600-dən çox xəstəxana, tibb obyektin əsaslı təmir olunaraq, yenidən bərpa edilməsi fikirlərimizi əsaslandırır.

Bir neçə ildir ki, Prezident İlham Əliyevin göstərişi ilə vətəndaşların kütləvi müayinədən keçmə kampaniyası aparılır. Azərbaycanda çoxsaylı səhiyyə müəssisələrinin tikintisi, əsaslı təmiri və müasir avadanlıqlarla təchiz edilməsi həyata keçirilir. Sabirabad, Neftçala və digər rayonlarda mərkəzi xəstəxanalar istifadəyə verilib. Bütün bu və ya digər xəstəxanalarla yanaşı, Bakıda "Ürək Mərkəzi" istifadəyə verilib. Tibb müəssisəsi də ən son elmi-texniki yeniliklərə əsaslanan texnologiya və avadanlıqlarla təchiz edilib. Müasir standartlara cavab verən mərkəz, Cənab Prezidentin vurğuladığı kimi, dünya səviyyəsində ən yüksək qiymətə layiq olan bir mərkəzdir. Son illər talassemiyanın müalicəsi və diaqnostikası istiqamətində də mühüm tədbirlər görülüb. Prezident İlham Əliyevin 10 fevral 2015-ci il tarixli Sərəncamı ilə talassemiyanın profilaktikasının gücləndirilməsi, əhali arasında maarifləndirmə işinin genişləndirilməsi, bütövlükdə, talassemiya xəstələrinə göstərilən tibbi köməyin təkmilləşdirilməsini nəzərdə tutan "Talassemiya ilə mübarizəyə dair 2015-2020-ci illər üçün Dövlət Proqramı" təsdiq olunub. Qeyd edək ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva hələ 2005-ci il fevralın 8-də Azərbaycanda "Talassemiyasız həyat naminə" layihəsinin həyata keçirilməyə başlanmasını elan edib. Həmin proqram Azərbaycanda bu xəstəliklə mübarizədə dönüş anı oldu. Proqramın icrası çərçivəsində 2009-cu ilin mayında Bakıda Respublika Talassemiya Mərkəzi açıldı. Bu gün ölkəmizdə 3000-dən artıq talassemiya xəstəsi və 1 milyona yaxın bu xəstəliyin daşıyıcısı var. Onu da vurğulayaq ki, bu xəstəliyin qarşısının alınması məqsədi ilə Ailə Məcəlləsinə edilən dəyişikliklər və digər normativ aktlarla bağlı qəbul edilən Qanuna görə, 2015-ci il iyunun 1-dən etibarən nikaha daxil olmaq istəyən vətəndaşlar tibbi müayinədən keçirlər. Bu da, öz növbəsində, talassemiya xəstəliyi ilə doğulan uşaqların sayının kəskin surətdə azalmasına imkan verir. Bütövlükdə, Talassemiya Mərkəzində indiyədək 55 sümük iliyinin köçürülməsi əməliyyatı həyata keçirilib.

### ƏHALİYƏ GÖSTƏRİLƏN TİBBİ XİDMƏT GENİŞLƏNDİRİLİB VƏ KEYFİYYƏTİ ARTIRILIB



Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, dünya üzrə yoluxucu xəstəliklərdən ölənlərin sayının növbəti illərdə azalması gözlənildiyi halda, QİX-dən ölənlərin sayının 2030-cu ilədək artması proqnozlaşdırılır. Hesablamalara görə, ürəyin işemik xəstəliyinin və beyin-damar xəstəliklərinin 80%-nə tütündən istifadə, spirtli içkilərdən sui-istifadə, qeyri-sağlam qidalanma və fiziki passivlik kimi davranış risk amilləri səbəb olur. Artıq çəki və piylənmə də, öz növbəsində, qan təzyiqi, qanda xolesterol və triqliserid səviyyələrinə mənfi metabolik təsir göstərə bilər. Strategiyada qeyd olunur ki, spirtli içkilərdən sui-istifadə nəticəsində, il ərzində baş verən 3,3 milyon ölüm hadisəsinin yarısı, məhz QİX ilə bağlıdır. Əksər ölkələrdə olduğu kimi, Azərbaycanda da xəstələnmə və ölüm hallarının əsas səbəbləri QİX-dir. Hazırda ölkə əhalisinin hər 100 min nəfərinə şəkərli diabetdən əziyyət çəkən 2053 nəfər düşür. QİX-in qarşısının alınması və bu xəstəliklərə nəzarət məsələlərinin hərtərəfli həlli səhiyyə, sosial, kənd təsərrüfatı, maliyyə, ticarət, nəqliyyat, şəhərsalma, təhsil və mədəniyyət kimi bütün müvafiq sahələrin birgə iştirak etdikləri vahid strategiyanın həyata keçirilməsini tələb edir. Bu tədbirlər əhalinin sağlamlığının və rifahının daha çox yüksəldilməsi, ictimai səhiyyənin gücləndirilməsi və əhali üçün əhatəli, ədalətli, davamlı və yüksək keyfiyyətli səhiyyə sistemlərinin təmin edilməsi məqsədi ilə üst-üstə düşür.

Əhaliyə göstərilən tibbi xidmətin genişləndirilməsində və keyfiyyətinin artırılmasında səhiyyənin ayrı-ayrı sahələri üzrə qəbul edilmiş dövlət proqramlarının rolu, əlbəttə ki, əhəmiyyətlidir. Belə ki, uşaqların icbari dispanserizasiyası Dövlət Proqramı çərçivəsində uşaqlar müayinələrə cəlb olunub. Qanın bədxassəli xəstəlikləri ilə xəstələnmənin və bu səbəbdən, ölüm hallarının yüksək göstəriciləri, bu xəstəliklərə, əsasən, əmək qabiliyyəti yaşında olan insanların və uşaqların düçar olması, müayinə və müalicə xərclərinin xəstələr üçün ağır maddi yük olmasını nəzərə alaraq, "2017-2021-ci illər üçün qanın bədxassəli xəstəlikləri ilə mübarizə üzrə Tədbirlər Proqramı" qəbul edilib. Bütün bu və ya digər amillər dövlət başçısı tərəfindən əhalinin sağlamlığının daha etibarlı qorunması naminə müəyyən etdiyi vəzifələrdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Dövlət Komitəsinin sədri Küveytin səfiri ilə görüşüb



Dünən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Küveyt Dövlətinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Səud Əbdüləziz Məhəmməd əl-Şəmlan əl-Rumi ilə görüşüb. SİA-nın verdiyi məlumata görə, qonağı səmimiyyətlə salamlayan Komitə sədri Azərbaycan və Küveyt arasında dostluq, qardaşlıq əlaqələrinin tarixindən, diplomatik münasibətlərin hazırkı durumundan söz açıb. O bildirib ki, bu gün İslam dünyası beynəlxalq aləmdə özünəməxsus yer tutur, İslam ölkələri İslam Əməkdaşlıq Təşkilatında birləşirlər. İki ölkənin uğurla inkişaf edən münasibətlərinə toxunan Mübariz Qurbanlı vurğulayıb ki, Azərbaycanla Küveyt üzvü olduqları İƏT çərçivəsində və ikitərəfli istiqamətdə yüksək səviyyədə əməkdaşlıq edirlər.

M.Qurbanlı həmçinin dövlət başçısı İlham Əliyevin 2009-cu ildə böyük nümayəndə heyəti ilə Küveytə səfərinin iki ölkə arasında əlaqələrin inkişafına böyük töhfə verdiyini diqqətə çatdırıb.

Küveyt və Azərbaycanın dost ölkələr olduğunu və əlaqələrimizin yüksələn xətt üzrə inkişaf etdiyini qeyd edən səfir Səud Əbdüləziz Məhəmməd əl-Şəmlan əl-Rumi qeyd edib ki, qardaş ölkə olaraq Küveyt hər zaman Azərbaycanın mənafeyini müdafiə edib. O bildirib ki, Küveyt dövləti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində maddi-mədəni və dini irsin talan və məhv edilməsi siyasətinə qarşı hər zaman ədalətli çağırışlar edib və Azərbaycanın haqq səsini beynəlxalq aləmdə yüksək səviyyədə müdafiə edib.



Səfir qeyd edib ki, ötən illər ərzində ölkələrimiz arasında müxtəlif səviyyələrdə ikitərəfli əlaqələr möhkəmləndirilib, o cümlədən hava əlaqəsi haqqında hökumətlərarası saziş imzalanıb. Bu da ölkələrimizin iqtisadi, ticarət, investisiya qoyuluşu və turizm sahələrində səmərəli əməkdaşlığının daha da möhkəmlənməsinə öz töhfəsini verməkdədir. Səfir ötən il 30 mindən çox Küveyt vətəndaşının ölkəmizə turist səfəri etdiyini deyib.

Qarşılıqlı hörmət və səmimiyyət şəraitində keçən görüşün sonunda səfir səmimi qəbula görə Dövlət Komitəsinin sədrinə təşəkkürünü bildirib. Qarşılıqlı maraq doğuran digər məsələlərin də müzakirə edildiyi görüşün sonunda səfirə DQİDK-nın ölkəmizdəki dini tolerantlıq mühiti və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmi haqqında ərəb dilində nəşr etdirdiyi kitablar təqdim edilib.

# Çinin nümayəndə heyəti Bakı Beynəlxalq Dəniz Ticarəti Limanında olub

Yeni Azərbaycan Partiyasının dəvəti ilə ölkəmizdə səfərdə olan Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Song Taonun rəhbərlik etdiyi nümayəndə heyəti iyulun 24-də Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarəti Limanını ziyarət edib. SİA-nın verdiyi məlumata görə, Bakı Beynəlxalq Dəniz Ticarəti Limanının iş fəaliyyəti, beynəlxalq yükdaşımalar və gələcək planlar haqqında qonaqlara məlumat verən Azərbaycan Respublikasının İqtisadiyyat naziri Şahin Mustafayev ölkəmizin Çin Xalq Respublikası ilə qarşılıqlı əlaqələrinin böyük perspektivə malik olduğunu bildirib.



İqtisadiyyat naziri Şahin Mustafayev ölkələrimiz arasında əlaqələrdən, əməkdaşlığımızın inkişafından danışıb və qeyd edib, bu əlaqələrin qədim tarixi var. Tarixi İpək Yolundan, bu yolun bərpasından, eyni zamanda bunun hər iki ölkə üçün əhəmiyyətindən danışan nazir Azərbaycanla Çin arasında istər siyasi, istər iqtisadi, istər mədəni, istərsə də hər hansı digər sahələrdə əlaqələrin və əməkdaşlığın faydalarını vurğulayıb.

Ölkələrimiz arasında münasibətlərin bundan sonra daha da inkişaf edəcəyini bildirən Ş.Mustafayev qeyd edib ki, ölkələrimiz arasında əlaqələrin bundan sonra daha sürətlə inkişafı üçün Bakı Beynəlxalq Dəniz Ticarəti Limanının əhəmiyyəti böyükdür və bu Liman daha böyük perspektivlərə imkan yaradır. Şahin Mustafayev kənd təsərrüfatı, ələlxüsus, tərəvəz məhsullarının mübadiləsi barədə gələcək planların olduğunu da nəzərə çatdırıb.

Daha sonra Çin nümayəndə heyətinin başçısı Sonq Tao da ölkələrimiz arasında mövcud əlaqələr barədə danışıb, bu əlaqələri yüksək qiymətləndirib. Qeyd edib ki, hələ bundan əvvəl Tarixi İpək Yolu vasitəsilə daşınan çaydan Çində geniş şəkildə istifadə edilib. Nümayəndə heyətinin başçısı bundan sonra da əlaqələrin inkişafına, daha da genişlənəcəyinə ümid etdiyini bildirib. Ardınca Ələt Limanı, onun imkanları və gələcək perspektivlərini əks etdirən videoçarx izlənildikdən sonra nümayəndə heyəti ilə birlikdə xatirə şəkilləri çəkilib.

# "Milli mətbuat - milli düşüncə" mövzusunda konfrans keçirilib



***İyulun 24-də Bakıda Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə Milli Mətbuat Gününə həsr olunmuş "Milli mətbuat - milli düşüncə" mövzusunda konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, konfransda çıxış edən Fondun icraçı direktorunun müavini Rəfi Qurbanov ölkəmizdə fəaliyyət göstərən mətbuat nümayəndələrini peşə bayramı münasibətilə təbrik edib. O bildirib ki, milli-mənəvi dəyərlərimizin qorunması, təbliği və gələcək nəsillərə çatdırılmasında mətbuatımızın rolu danılmazdır.***

"Əkinçi" qəzetindən başlayan söz və ifadə azadlığı bizə "Füyuzat"la dəyərlərimizə hörməti, "Molla Nəsrəddin"lə sağlam tənqidi öyrətdi. Bu mənada milli mətbuatın yaranması milli kimliyimizin formalaşmasında xüsusi rola malikdir. Söz və ifadə azadlığının tərənnümü olan mətbuat bu gün fundamental dəyərlərin təbliğində yaxından iştirak etməlidir. Bu sahədə dövlətin həyata keçirdiyi siyasətə toxunan R.Qurbanov diqqətə çatdırıb ki, dini, irqi ayrı-seçkiliyi təbliğ edən, nifrəti aşılayan məzmunların qanun çərçivəsində qadağan olunması tarixən çulğalaşan dəyərlərimizin qorunmasına və geniş təbliğinə yönəlib.

Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib ki, 144 yaşlı milli mətbuatımız ötən zaman ərzində böyük inkişaf yolu keçib. Bu gün mətbuata dövlət tərəfindən xüsusi diqqət və qayğının göstərilməsi, eyni zamanda, söz, fikir və özünüifadə azadlığının ən yüksək səviyyədə təsbit edilməsi, mətbuatın maddi-texniki və maliyyə bazasının gücləndirilməsi, media institutunda təmsil olunan şəxslərin səmərəli fəaliyyəti üçün əlverişli şəraitin yaradılması və digər bu kimi amillər milli mətbuatımızın inkişafını şərtləndirən fundamental amillər kimi dəyərləndirilməlidir.

"SƏS" İnformasiya Agentliyinin icraçı direktoru Vəli Vəliyev bildirib ki, milli mətbuatımızın "Əkinçi"dən bu günə qədər keçdiyi yol keşməkeşli və şərəflidir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan siyasi kursun məntiqi nəticəsi kimi, bu gün ölkədə azad, demokratik və güclü mətbuat var. Hazırda müstəqil mətbuatın formalaşması və inkişafına xidmət edən siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

"İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib ki, Azərbaycanda müstəqil mətbuatın inkişafından bəhs edərkən ilk olaraq Ulu Öndərin 1998-ci il 6 avqust tarixli "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı ilə mətbuatın üzərindən senzuranın götürülməsi qeyd edilir. Təbii ki, senzuranın mövcudluğu şəraitində mətbuatın müstəqilliyindən danışmaq qeyri-mümkün idi. Bu qətiyyətli addım yeni müstəqil medianın fəaliyyəti üçün geniş imkanlar açdı.

Azərbaycan mətbuatının əsas inkişaf dövrünün ölkənin müstəqilliyinin ilk illərinə təsadüf etdiyini bildirən "Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli diqqətə çatdırıb ki, 1990-cı illərin əvvəllərində yeni qəzetlərin nəşri prosesi ilə jurnalistikada keçid mərhələsi başladı. Müstəqillik ideyalarını təbliğ edən, milli oyanış, özünüdərk prosesinin əsas amili olan Azərbaycan mediası bu vaxtdan etibarən yeni inkişaf mərhələsinə qədəm qoydu.

Sonda Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən media nümayəndələri arasında elan olunmuş "Milli mətbuat - milli düşüncə" mövzusunda məqalə müsabiqəsinin qalibləri mükafatlandırılıb.

# Uçuruma yuvarlanan xunta

## *Paşinyanın ambisiyaları Ermənistanı növbəti uçuruma sürükləyir*

2019-cu ilin Ermənistan üçün son dərəcədə ağır və məyusluqla dolu bir il olduğu, artıq sadə erməni vətəndaşında belə şübhə yaratmır. Ancaq onlar, belə vəziyyətin yaranmasında nə qonşuları, nə onlardan üz döndərmiş havadarları, nə də 2019-cu ili günahkar bilirlər. Əsl günahkarın da kim olduğunu, görünür, indi erməni xalqı da yavaş-yavaş anlayır. Anlayır ki, əvvəlki rəhbərlər kimi, küçə təfəkkürlü "küçə demokratı" Nikol Paşinyan da onlardan geri qalmayıb: eyni vədlər, eyni pafoslu çıxışlar, nəticə isə yox. Sözsüz ki, bu gün, ən azından, dünya demokratiyadan danışdığı bir vaxtda, aqressiv siyasət yeridərək, bu məsuliyyəti öz uydurulmuş tarixi ədalətlərini bərpa etməyə yönəldilmiş fəaliyyətlə maskalamaqla, demokratik və ədalətli dövlət imici yaratmaq mümkün deyil. İşğalçılıq siyasəti yeritməklə, ölkə hakimiyyəti özü-özünü dalana dirəmiş oldu. İşğal olunmuş Azərbaycan torpaqlarının geri qaytarılmaması və bunun da saxta tarixə əsaslandırılmış faktlarla ört-basdır edilməsi, məhz Ermənistan dövlətinin regionun lider dövləti olan Azərbaycan və onun yaxın müttəfiqi Türkiyə tərəfindən regiondakı bütün layihələrdən kənarlaşdırılmasına qalmasına səbəb oldu. Bu isə, öz növbəsində, Ermənistanın iqtisadi inkişafına təsirsiz ötüşmədi. Dövlət daha çox Rusiyadan və ölkəyə erməni diasporu tərəfindən yatırılan pullardan asılı vəziyyətə düşdü.

Sözsüz ki, uzun müddət Ermənistanı, məhz bu vəziyyətdə saxlamaq istər erməni diasporu, istərsə də, Rusiya üçün iqtisadi cəhətdən əlverişli deyil. Bu yardımların kəsilməsinin əsas səbəblərindən biri də erməni hakimiyyətinin ayrılan maliyyəni necə istifadə etməsidir. Ölkəni idarə edənlərin, məhz Qarabağı işğal edən və orada vəhşiliklər törətmiş insanlardan ibarət olması, hakimiyyətin Qarabağ problemini uzatmasına səbəb olur.

Maraqlı məqam ondan ibarətdir ki, bu hakimiyyət, məhz öz xalqına münasibətdə də aqressiv mövqedədir. Həyata keçirilən siyasətdə xalqın güzəranı nəzərə alınmır və şəxsi maraqlar üzərindən islahatlar həyata keçirilir. Son dövrdə Ermənistanın üzləşdiyi qaz problemi artıq, ölkədə digər problemləri də üzə çıxarmaqdadır. Ölkədəki problemlər səbəbindən, miqrasiya artıq Ermənistanın qarşısında böyük problemə çevrilmişdir.

Ermənistanda hakim dairələr arasında davam edən siyasi çəkişmə ölkənin daxili və xarici siyasətini zəiflətməkdə davam edir. Siyasi analitiklər baş nazir Nikol Paşinyanın mövcud problemlərin həllinə yox, rəqibləri ilə daxili çəkişmələr və ədavətə vaxt sərf etməsini siyasi səhv adlandırırlar.

### Paşinyanın ambisiyaları xalqın istəyinə qarşı

Bu, həqiqətən də, belədir. Belə ki, ötən ilin sonuna yaxın "küçə demokratı" Nikol Paşinyan xalqa verdiyi vədlərin bu gün nəticə verməmdiyi ölkədə böyük gərginlik yaradıb. Daha doğrusu, Paşinyanın ambisiyaları xalqın istəyi ilə üst-üstə düşmədiyi üçün, Nikola olan inamı azaldıb.

Politoloqlar da bildirirlər ki, Paşinyan hakimiyyətə gələn gündən təxribat dolu bəyanatlar yayır. Onun separatçı Dağlıq Qarabağ rejiminin danışıqlara cəlb edilməsi fikrini səsləndirməsi vəziyyəti daha da gərginləşdirib. Artıq Ermənistan əhalisi Paşinyanın populist çıxışlarını deyil, konkret iş və nəticə gözləyir. Bununla da, düşdükləri çətin sosial və iqtisadi uçurumdan xilas olmaq istəyir. Görünən isə, odur ki, Nikol Paşinyanın şəxsi ambisiyaları xalq və vətən sevgisindən daha üstündür. Bu isə, Ermənistan üçün yeni bir uçurumun başlanğıcı deməkdir.

### Levon Ter-Petrosyan: "Bu cəhənnəmi gözlə görmək istəyirsinizsə, buyurub Ermənistana gəlin"

"Çoxlarımızın boş əfsanə sandığı cəhənnəm artıq xəyal deyil, əsl həqiqətdir. Bu cəhənnəmi gözlə görmək istəyirsinizsə, buyurub Ermənistana gəlin. Qarşınızda sözlə ifadə edilə bilməyəcək qədər dəhşətli bir mənzərə canlanacaq. Dilənçilərlə dolu küçələr, ağır iqtisadi böhran üzündən gündəlik çörəyə möhtac qalmış biçarə insanların





acı ah-naləsi, ölkəni öz ağuşuna almış işsizlik və səfalət üzündən könüllü surətdə baş verən intiharlar və intihara cəhdlər, sakinləri kütləvi surətdə köçüb getmiş kəndlərdən gecələr eşidilən canavar ulartıları, daha nələr, nələr..." Bu sözləri biz yox, Ermənistan Milli Konqresinin rəhbəri Levon Ter-Petrosyan ölkədəki mövcud vəziyyəti qiymətləndirərkən deyib. Onu da bildirib ki, "Ermənistanın şəhər və kəndlərində yaşayan əhalinin 98 faizi aclıq və yoxsulluğun caynaqlarında boğulur. Bu gün Ermənistan büdcəsi 7,5 milyard olmalı idi. Hər il həmin sərvətin 5 milyardını Serj Sarkisyan, Tiqran Sarkisyan, onlara qədər isə, Robert Koçaryan oğurlayıb. Ölkədəki ağır iqtisadi böhran üzündən 1998-ci ildən bugünədək Ermənistanı 1 milyondan artıq insan tərk edib. Əksəriyyəti də yüksək ixtisaslı mütəxəssislər, görkəmli yaradıcı ziyalılar və onların ailə üzvləridir. İndi isə, Nikol Paşinyan bu yolu davam etdirməkdədir. Bu ölkə iqtisadi böhran, haqsızlıq və ədalətsizlik bataqlığından qurtula bilməyəcək".

"Armeniya Today" portalında yer alan xəbərdə vurğulanır ki, indi də Sarkisyan rejiminin davamçısı olan Nikol Paşinyan dövləti idarəetmə metodları dünyanın ən geridə qalmış, yoxsul dövlətlərindəki idarəetmə sisteminin, sadəcə, kserokopiyasıdır. Ermənistanda əhalinin 65 faizi ağır yoxsulluq səviyyəsində, 26 faizi isə, səfil kökündə yaşayır. Xalq tamam unudulub. Əvvəllər olduğu kimi, bu gün də ölkə əhalisi "Ermənistanın gələcəyi varmı?" sualı qarşısında sual işarəsinə dönüb.

Ermənistan mətbuatının verdiyi məlumata görə, ticarət müəssisələrindəki hədsiz bahalılıq, insanları dəhşətə salıb. 3-4 nəfərlik bir ailəni təkcə ərzaq məhsulları ilə təmin etmək üçün ayda, ən azı, 500 avro tələb olunur. Orta aylıq əməkhaqqı isə, cəmi 200 avrodur. Qiymətlərin ilbəil artması fonunda maaşların, təqaüdlərin və sosial yardımların öz yerində ayaq döyməsi və inflyasiyanın ağlasığmaz dərəcədə dərinləşməsi, vəziyyəti ən kritik həddə çatdırıb. Ölkənin əksər bölgələrində, xüsusilə, şimal rayonlarındakı kəndlərdə nə içməli su var, nə də qaz. Hər il yüz minlərlə sadə vətəndaşın canlarını qurtarmaq üçün baş götürüb, əcnəvi ölkələrə qaçmalarına da səbəb elə budur. Bəzi ölkələrdən alınan qrantların və diaspor pullarının dayandırılması və azaldılması Ermənistanın bir dövlət kimi süqutunu daha da sürətləndirib.

Erməni eksperti Manvel Sarkisyanın fikrincə, "İqtisadi böhran əhalini elə müflisləşdirib ki, xalqı bu vəziyyətdən yalnız inqilabi çevriliş xilas edə bilər ki, o da, labüddür.

Ermənistanın xarici borcları da ilbəil artmaqdadır. Bu borclar artıq 8 milyard dolları ötüb. Bunun 37,5 faizi Dünya Bankına, 33,2 faizi Beynəlxalq İnkişaf Assosiasiyasına, 23,2 faizi Beynəlxalq Valyuta Fonduna, 4,6 faizi Asiya İnkişaf Bankına, 4,2 faizi isə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına olan borclardır. Dövlət büdcəsi lüt-üryan qalmış Ermənistanın bu borcları və onların ilbəil artan faizlərini necə ödəyəcəyi sual altındadır. Mütəxəssislərin fikrincə, hazırkı daxili və xarici borclar məngənəsindən xilas olmaq üçün Ermənistan hökumətinə azı 16 il vaxt lazımdır. Həm də ölkədə köklü islahatlar aparıb, məmur özbaşınalığına, korrupsiyaya, haqsız rəqabətə, kiçik və orta sahibkarlığa qarşı aparılan total terrora son qoyduqdan sonra. Xarici borcların həndəsi silsilə ilə artması, işsizlik, miqrasiya və ölkənin cüzi maliyyə vəsaitlərinin iqtisadiyyatın inkişafına deyil, silahlanmaya xərclənməsi vəziyyəti daha da çətinləşdirib.

### Paşinyanın demokratiya kimi sırımaq istədiyi oxlokratiyadır

Ən maraqla mənam isə, hələ də Paşinyanın demokratiyanın nə olduğunu hələ də anlaya bilməməsidir. Elə bu səbədən də, Nikol, hətta ölkədə baş verən xaosa demokratiya adı verməklə, ondan silah kimi istifadə etməyə də çalışır. Sanki kim Nikol Paşinyana, onun hakimiyyətinə qarşı çıxırsa, elə bil, baş nazirə deyil, demokratiyaya qarşı çıxır. Yaxud Ermənistanla, hətta rəqabət aparanlar belə, sanki demokratiyaya düşmən kəsilənlərdir. Hətta N.Paşinyan, az qala, bütün dünya ölkələri və demokratik institutlar qarşısında dilemma qoymağa çalışır və bir növ, bütün dünyanı və özünü demokratik hesab edən ölkələri onun mövqeyini müdafiə etməyə borclu hesab edir. Elə bil ki, "Ermənistanın rəqiblərinə qarşı çıxan demokratiyanın düşmənlərinə qarşı çıxır" kimi bir fikir formalaşdırmağa çalışan baş nazir bunu borc kimi xatırlatmaq niyyətindədir və hətta az qala, bunu onlardan tələb etmək xülyasına da düşüb. Halbuki Ermənistanla demokratiya ifadəsi arasında böyük bir uçurum var və erməni cəmiyyətində insan azadlıqlarından, hüquqlardan, humanizmdən danışmaq belə absurddur. Tarixi faktlar təsdiq edir ki, hələ Dağlıq Qarabağ münaqişəsindən də öncə, törədilən erməni terroru, vandallığı misli-bərabəri olmayan vəhşilikdən xəbər verir və bunun humanizmlə, ələlxüsus, demokratiya ilə zərrə qədər əlaqəsi ola bilməz. Əslində, işğalçı ölkənin qeyri-humanist, antidemokratik siyasəti hələ də davam etdirilir və təsir mexanizmi kimi istifadə olunan küçə yürüşlərini və aksiyaları demokratiya kimi qələmə vermək yalnız erməni xislətinin təzahürüdür.

### Ermənistanın baş naziri küçədən gəlməyib, elə meydanlarda qalıb və hələ də küçə ab-havası ilə yaşayır

Bunu ölkədə baş verən hadisələr də təsdiqləyir. Belə ki, N.Paşinyan nazir postuna oturdulsa da, hələ də meydandan və küçədən yığışmaq bilmir ki, bilmir. Paşinyan çox yaxşı başa düşür ki, özünün dediyi şəkildə istefa verdikdən sonra, ona müxalif olan partiyalar fərqli bir namizədi dəstəkləsələr, o, özü mütləq oyundankənar vəziyyətdə qalmalı olacaq. Məhz bunun qarşısını almaq niyyəti ilə bir növ indi də deputatları hədələyir və belə bir oyundankənar vəziyyətdən sığortalanmaq istəyir. Əgər bir ölkədə siyasi proseslər hüquq müstəvisində yox, qanuni yolla deyil, kütlənin iradəsi ilə tənzimlənir, istiqamətləndirilirsə, bu demokratiya deyil, oxlokratiyadır. Belə çıxır ki, Paşinyan dəyənək kimi istifadə etdiyi kütlənin iradəsi ilə hökmranlığını qurubsa və məhz kütlənin xofu ilə idarəetmə müxanizmini tətbiq edirsə, deməli, Ermənistanın özündə də ermənilərin iddia etdikləri demokratiya yox, klassik bir oxlokratiya hökm sürür. Bu da, hazırda, məhz Ermənistanda müşahidə olunur.

Ancaq tarixi faktlar, onu da deməyə əsas verir ki, oxlokratiyanın ömrü heç də uzun olmur. Hələ ki, küçə və meydanlarda olan kütlə öz tələblərini irəli sürür və öz iradəsini diqtə edir. Paşinyan da bundan məharətlə sui-istifadə edir. Lakin tarixdən də göründüyü kimi, bu mərhələ uzun sürə bilməz və heç uzun sürməyəcək də. Çünki Paşinyan kütlədən hakimiyyətini möhkəmləndirənə qədər istifadə edəcək. Tarix boyu hər zaman belə olub və qaragüruhdan istifadə edənlər hakimiyyətlərini təmin etdikdən sonra kütləni tamamilə unudurlar. Təbii ki, hakimiyyəti öz əlində cəmləşdirdikdən sonra nə demokratiya, nə də Ermənistan, eləcə də, ermənilər onu maraqlandırmayacaq. Beləliklə də, yerini möhkəmləndirdiyinə əmin olan baş nazir öz səriştəsiz və məhvə sürükləyən siyasətini yürütməkdə davam edəcək. Nəticədə, Paşinyanın oxlokratiya hakimiyyəti də, elə indi bu oxlokratiyanı demokratiya kimi sırımaq istəyən Ermənistan da tarixin arxivinə növbəti fakt kimi yollanacaq.

**A.SƏMƏDOVA**

# Müxalifətin zəifliyi və uğursuzluğu faktlara əsaslanır

*Onları düşündürən ancaq şəxsi maraqları və ambisiyalarıdır*

***Artıq danılmaz bir faktdır ki, müxalifət formalaşa və inkişaf edə bilmir. Yaratdıqları blok və qurumlar partiya sədrlərinin iddiaları səbəbindən dağılır. "Səs"ə danışan müsahiblərimiz də bildirirlər ki, xarici maraqlı dairələrin sifarişlərinə baxmayaraq, müxalifət birlik modeli ortaya qoya bilmir, çünki, birinci olmaq iddiaları onların bir araya gəlmələrinə imkan vermir.***

**TOHGMİB-in sədri Emin Həsənli: "Müxalifət düşərgəsini təmsil edən şəxslərin özləri də çox yaxşı bilirlər ki, xalq onları dəstəkləmir"**



- Demək olar ki, müxalifət düşərgəsini təmsil edən şəxslərin fəaliyyəti anormal qurulub. Hər hansı bir təşkilat və qurum yaratdıqları zaman sensasion açıqlamalar verirlər. Ancaq biriki ay sonra o qurumlar dağılır. Səbəbi odur ki, bu insanlar vahid ideya ətrafında toplaşmayıblar. Qurumların ömrü o vaxt effekt verir ki, konkret ideya ətrafında birləşsinlər, ideya ətrafında fədakarlıq göstərməyə hazır olsunlar. Amma bu cür qurumlar da, konkret olaraq, "Milli Şura"da və başqalarında vahid ideya yoxdur. Onları düşündürən, ancaq şəxsi maraqları və ambisiyalarıdır. Həmişə də şəxsi ambisiyaları aralarında dava-dalaş yaradır. Maraqların toqquşması nəticə etibarı ilə partiyaların parçalanması ilə nəticələnir. Demək olar ki, bunların taleləri həmişə belə olub. Yəni müxalifət düşərgəsini təmsil edən şəxslər hər il bir qurum yaradırlar, gurultulu vədlər verirlər və sonra da dağılırlar, parçalanıb gedirlər. Onların bu simasını, hərəkətlərini, xarakterlərini xalq da bilir. Ona görə də, müxalifətin xalq tərəfindən heç bir dəstəyi yoxdur. Müxalifət düşərgəsini təmsil edən şəxslərin özləri də çox yaxşı bilirlər ki, xalq onları dəstəkləmir.

**Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: "Bu cür anormallıq davam edəcək"**



- Bu gün dağıdıcı müxalifət düşərgəsində təmsil olunan siyasi təşkilatlar bir-birindən fərqli ideologiyalara və məqsədlərə xidmət edən təşkilatlardır. Yəni bu partiyalar bir-birlərindən çox fərqlənirlər. Əslində, bunlar ayrı-ayrı şəxslərin ətrafında toplaşmış qruplardır. Bu baxımdan, onları hansısa siyasi maraqlar ətrafında birləşmiş qruplar adlandırmaq olmaz. Hər bir partiya sədri iddialıdır, çalışırlar ki, digər partiyaları özlərinə tabe etdirsinlər. Hədəfləri və niyyətləri hər zaman belə olub. Bu da qarşıdurmalara, çəkişmələrə gətirib çıxarıb. Yəni maraqları naminə fəaliyyət göstəriblər və bir-birlərini də didiblər. Hətta müxalifət təmsilçiləri arasında yaranan didişmələr böyük savaşlara gətirib çıxarıb. Ona görə də, heç vaxt bunların arasında birlik olmayıb, yaratdıqları qurumlar da, az sonra parçalanıb. Səbəb də onların bir-birini qəbul etməməsi və şəxsi ambisiyalarının öndə olması ilə bağlıdır. Bu cür anormallıq davam edəcək. Çünki onlar normal siyasi islahatlar aparmırlar, üzləşdikləri uğursuzluqlarını heç vaxt müzakirə etməyiblər ki, nəyə görə acınacaqlı vəziyyətə düçar olublar. Məhz bu cür faktlar, onu deməyə əsas verir ki, müxalifət partiyaları bu cür acınacaqlı vəziyyətdədir.

***GÜLYANƏ***



## Qarabağda erməni əsgəri öldürülüb

İşğal olunmuş Dağlıq Qarabağda Ermənistan ordusunun əsgəri öldürülüb. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, Ermənistan Müdafiə Nazirliyinin yaydığı məlumatda insidentin cəbhə xəttindəki təmas nöqtələrindən birində baş verdiyi bildirilir. Erməni əsgərin öz yoldaşlarının atdığı güllə yarasından öldüyü ehtimal olunur. 2000-ci i təvəllüdlü əsgər Volodya Qaloyanın ölümü ilə bağlı hərbi prokurorluq tərəfindən təhqiqat aparılır.

## Ermənistan ordusunda intihar və cinayət halları artıb

Son günlər Ermənistan ordusunda intihar və cinayət halları artıb. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, bu ölkənin İstintaq Komitəsi Volodya Qaloyan adlı hərbi qulluqçunun avtomat silahla öz əsgər yoldaşını öldürmək istədiyini bildirib. Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsində baş vermiş bu insidentin təhqiqatı zamanı aydın olub ki, atəş açdıqdan sonra qaçan həmin hərbi qulluqçu digər əsgər tərəfindən güllələnib.



Həmin gün digər insident isə paytaxt Yerevanda baş verib. İstintaq Komitəsinin mətbuat katibi Naira Aryutunyan jurnalistlərə bildirib ki, Rusiyanın Ermənistanda dislokasiya olunmuş sərhəd qoşunlarında kontrakt əsasında xidmət edən 30 yaşlı erməni hərbi qulluqçu yaşadığı bağ evində özünü asaraq intihar edib. O əlavə edib ki, hərbçinin cəsədi üzərində məhkəmə-tibbi ekspertiza aparılır. Hadisənin səbəbinin həmin şəxsin həmkarlarına külli miqdarda borcu olmasıdır.

## Rusiyada qətl törədən erməni həbs olunub



Bu yaxınlarda Rusiyada ağır qətl törədən erməni quldur dəstəsinin üzvlərindən biri həbs olunub. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, Rusiya Dövlət Kəşfiyyat İdarəsinin keçmiş xüsusi təyinatlı zabiti Nikita Belyankini qətlə yetirən və daha bir şəxsi yaralayan quldurlardan biri, barəsində axtarış elan olunmuş Arevik Xaçatryan Yerevanda yaxalanıb. Ermənistanın baş prokurorluğu onun cinayət məsuliyyətinə cəlb olunması üçün rusiyalı həmkarlarından qətl hadisəsi ilə bağlı sənədləri istəyib.

Cinayət işində qeyd olunub ki, Nikita Belyankin iyunun 2-də erməni quldur dəstəsinin iştirak etdiyi dava-dalaşı sakitləşdirmək istəyərkən qətlə yetirilib. Rusiyanın İstintaq Komitəsi qəsdən adamöldürmə, bədən xəsarətləri yetirilməsi və xuliqanlıq maddələri işə cinayət işi qaldırıb. Quldur dəstəsinin 9 üzvü dərhal həbs edilib. Onların beşi Rusiya, dördü isə Ermənistan vətəndaşlarıdır. Üç nəfərə qarşı qəsdən adamöldürmə ittihamı irəli sürülüb. Cinayətdə iştirak edən daha bir erməni isə hələ də tapılmayıb. Onun barəsində beynəlxalq axtarış elan olunub.



## Tüpürdüyünü yalayıb və bundan doymayan

**RƏFİQƏ**

***Müxalifətin dağıdıcı düşərgəsində sülənənlərin hamısı elə bu yolun yolçusudur desək, doğru olar. Orada tüpürdüyünü yalayıb ondan doymayanlar, Gültəkin Hacıyevadan tutmuş, Cəmil Həsənliyə kimi, hamısı da yaltaq keçmişlərini unudub, utopik gələcəklərini kanalizasiya deşiyinə atanlardır.***

İndi isə, "Milli Şura"nın zorən sədri, daha çox AXCP sədri Əli Kərimlinin əlaltısı, daha düzünü desək, nökəri-qulu olan Cəmil Həsənli bu gün düşərgədə müxalifətin" anası", "atası" olmaq mübarizəsini "liderlik"lə əvəz edən AXCP sədri Ə.Kərimlinin verilən təlimatını canla-başla icra etməyə başlayıb. Məsələ ondadır ki, bu ölkənin istənilən uğuruna barmaqarası baxan C.Həsənlinin hər ifadəsində, hər bəyanatında Ə.Kərimli üfunətinin qoxusu gəlməkdədir. Bu yerdə bir məqamı xatırlatmaq yerinə düşər. Belə ki, hələ ötən prezident seçkilərində debatlar zamanı prezidentliyə digər namizəd olan Araz Əlizadə C.Həsənlinin onunla yanaşı oturdulmasına etirazını bildirərək, bunu onun "ağzından üfunət iyi gəlir" iddiası ilə əsaslandırmışdı. Əslində, bəziləri bu ifadələri, hərfi mənada anlasalar da, burada bir həqiqət görüntüsü var idi. Çünki Əlizadənin Həsənlinin ağzından üfunət iyinin gəlməsi iddiası arxasında onun bütün etik normaları ayaq altına alaraq, cəmiyyət qarşısında işlətdiyi rəzil ifadələri, təlxəkliyi və s. bir çox çatışmayan cəhətləri nəzərdə tutulmuşdu.

Bu, həqiqətən də, belədir - C.Həsənlinin ağzından üfunət iyi gəlir! Çünki o da sirr deyil ki, ölkədə mövcud olan demokratik hakimiyyət, güclü, sarsılmaz xalq-dövlət vəhdəti, dövlətin xalqa müstəsna xidməti faktoru vaxtilə həmin bu C.Həsənli tərəfindən də etiraf olunurdu. Özü də Milli Məclisdə, yazdığı çoxcildli kitablarda, məqalələrdə, beynəlxalq tribunalarda və s. Həmin C.Həsənli tərəfindən ki, öz mandatını Ə.Kərimlinin maraqlarına qurban verməyərək, AXCP sıralarından istefa vermiş, Ə.Kərimlinin ətəyinə tüpürərək, ondan uzaqlaşmışdı! Həmin C.Həsənli tərəfindən ki, vaxtilə ətəyinə tüpürdüyü Ə.Kərimlinin ətəyinə geri dönüb, indi də həmin tüpürcəyini iştahla yalayır, yaladıqca da doymur!

Bəli, bu rəzil müxalifətin sonu budur və bu sonu da müxalifətə xalq yaşatmayıb. Çünki xalq bu müxalifəti heç vaxt qəbul etməyib. Əlbəttə ki, beş-on nəfər "kəndini bilməzlərdən" başqa. Bu, o müxalifətdir ki, özü-özünün sonuna çıxıb və bunu da ən əsası isə xidmət göstərdikləri xarici ağalarının onlara verdikləri qrantlara. Və bu gün bu qrantların təsirindən C.Həsənli kimilərin azından gələn üfunət iyi bir daha onun kimliyini sübut edir. Sübut edir ki, bu rəzillər tüpürdüklərini yalamaqla yanaşı yaladıqlarından doymayanlardır. Və belə olan halda rəzilin "rəzalətdən" danışmağa haqqı yoxdur. O ki qala, C.Həsənli olsun. Çünki o, yaltaq keçmişini unudub, utopik gələcəyini də kanalizasiya deşiyinə atıb. Necə deyərlər, üfunətə alışan C.Həsənli, onsuz da, üfunət girdabında eşələnməkdədir. Çünki Cəmil Həsənlinin yeri elə oradır.

# YAP-ın "Yay məktəbi" layihəsi gənclərin inkişaf, dialoq və inteqrasiya platformasıdır




***Yeni Azərbaycan Partiyasının təşkil etdiyi "Gənc liderlər üçün yay məktəbləri"nin II turu başa çatdı. 2007-ci ildən başlayan "Yay məktəbi" layihəsinin builki mərhələsində də partiyanın fəal üzvü olan 300-dən çox gənc iştirak etdi. "Yay məktəbi"ndə iştirak edən gənclər həm Bakı şəhərini, həm də bölgələri təmsil etdilər. Hər il olduğu kimi, bu dəfə də "Yay məktəbi" layihəsi ölkəmizin gözəl guşələrində - Oğuzda və Lerikdə təşkil olundu. Layihə çərçivəsində gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi üçün ekskursiyalar təşkil olundu, müxtəlif məsələlərlə bağlı təlimlər, debatlar, intellektual və əyləncəli oyunlar reallaşdırıldı və idman yarışları təşkil edildi. "Yay məktəbi" çərçivəsində YAP-ı təmsil edən deputatlar, partiyanın Siyasi Şurasının üzvləri də gənclərlə birgə layihə iştirakçısı oldular. Onlar müxtəlif mövzular ətrafında gənclərlə fikirlərini bölüşdü, müxtəlif suallara cavab verdilər.***



Bununla da, YAP bir daha Azərbaycan gəncliyinə olan münasibətini və diqqətini ortaya qoymuş oldu. Əlbəttə ki, iqtidar partiyası olaraq, YAP-ın gənclərin asudə vaxtının səmərəli təşkili və onların bacarıqlarının reallaşdırılması baxımından, həyata keçirdiyi layihələr birbaşa dövlətin cəmiyyətimizin sözügedən aktiv sosial təbəqəsinə olan qayğısından irəli gəlir. Azərbaycan dövlətinin, Prezident İlham Əliyevin gənclərə olan münasibətini isə, bu gün hər bir azərbaycanlı əyani şəkildə görür.

Sirr deyil ki, Azərbaycanda gənclər siyasəti 1993-cü ildən - Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişindən sonra formalaşıb. O vaxta qədər - 1991-1992-ci illərdə Azərbaycan gəncliyi siyasi hakimiyyəti istismar edən ayrı-ayrı kriminal qruplaşmaların əlində alətə çevrilmişdi. Onlar, əsasən, cinayət və digər qanunazidd fəaliyyətlərə təhrik edilir, hətta düşmənlərlə sövdələşmələrə göndərilirdi.

Ulu Öndərin siyasi hakimiyyətə gəlişindən sonra Azərbaycan gənclərinə xüsusi diqqət ayrıldı və hətta bu sahədə siyasi kurs da hazırlandı. Gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi elan etmiş Ümummilli Lider Heydər Əliyev bu məqsədlə 1994-cü il iyulun 26-da Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması haqqında Fərman verdi. 1995-ci ildə isə Ulu Öndər Heydər Əliyev Azərbaycan gənclərinin forumunun keçirilməsi təşəbbüsünü irəli sürdü və 2 fevral 1996-cı il tarixində müstəqil Azərbaycan Gənclərinin ilk Forumu keçirildi. 1 fevral 1997-ci il tarixində forumun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən Ulu Öndər Heydər Əliyev "2 fevral - Azərbaycan gəncləri gününün elan edilməsi haqqında" Sərəncam imzaladı. Həmin vaxtdan etibarən, ənənəvi olaraq, hər il 2 fevral günü Azərbaycan gənclərinin bayramı kimi təntənəli şəkildə qeyd olunur.

Ardıcıl olaraq, həyata keçirilən işlərin davamı kimi, 2 mart 1999-cu il tarixində Ulu Öndər Heydər Əliyev respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şəraitin yaradılması, dövlət orqanlarının diqqətini gənclərin problemlərinin həllinə yönəltməklə bağlı tövsiyələr verdi. Məhz 1999-cu ildə Ümummilli Lider tərəfindən imzalanan "Dövlət gənclər siyasəti haqqında" Fərman isə bu sahəyə dövlət başçısı səviyyəsində böyük önəm verildiyinin təzahürü kimi qiymətləndirilə bilər. Fərmana müvafiq olaraq, "Gənclər siyasəti haqqında" qanun qəbul edildi və 9 aprel 2002-ci il tarixdə Heydər Əliyev tərəfindən imzalandı. Gənclər siya-



sətinin həyata keçirilməsi əsas cavabdeh dövlət qurumu kimi Gənclər və İdman Nazirliyinə tapşırıldı.

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev də gənclər siyasətinə eyni diqqətlə yanaşır. Belə ki, 2005-ci ildə Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Gəncliyi Dövlət Proqramı" (2005-2009-cu illər) imzalandı. Proqrama gənclər arasında hüquq pozuntularının, narkomaniyanın və digər zərərli vərdişlərin profilaktikası, gənclərin sağlamlığının qorunması sahəsində tədbirlərin həyata keçirilməsi, kütləvi bədən tərbiyəsinin və idmanın inkişaf etdirilməsi, ölkənin ictimai-siyasi həyatında gənclərin fəal iştirakı, uşaq və gənclər üzrə təşkilatların formalaşması və inkişafı üçün şəraitin yaradılması kimi vəzifələr daxil edildi. Həmçinin, dövlət başçısının Fərmanı ilə Gənclər və İdman Nazirliyi 2006-cı ildə yenidən təşkil edildi, gənclər siyasətinin əsas icra orqanı qarşısında yeni vəzifələr qoyuldu.

Prezident İlham Əliyev tərəfindən 2007-ci il "Gənclər İli" elan edildi. Bu mənada dövlət başçısı Azərbaycan gəncliyinin savadına,



bacarığına, gələcəyinə böyük inamla yanaşdığını nümayiş etdirməklə bildirdi ki, hər bir insanın gücü, əlbəttə ki, onun biliyindən asılıdır: "Ona görə mən əminəm, gənclərimiz bunu yaxşı başa düşürlər ki, yaxşı bilik almaq, yaxşı savad almaq və istənilən sahədə peşəkar olmaq hər bir gəncin, hər bir insanın həyatda yaxşı yer tutmasına gətirib çıxaracaq".

3 oktyabr 2008-ci ildə isə Prezident İlham Əliyev Azərbaycan Gənclərinin V Forumunda iştirak etdi. O, dövlətin gənclərlə bağlı siyasətinin gələcəyə ünvanlandığını və gənclərin elmdə, təhsildə, mədəniyyətdə və idmanda əldə etdiyi göstəricilərin respublikamızın qüruru olduğunu bildirdi. Bütün söylənilənlərin davamı kimi Prezident İlham Əliyev "Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramını imzaladı, Azərbaycan Gənclər Fondu yaradıldı, gənclər mərkəzləri açıldı, bu sahənin inkişafı ilə əlaqədar bir sıra qanunlar qəbul edildi və qərarlar verildi.

Bunlar, bir daha göstərir ki, Azərbaycanda gənclər siyasəti ardıcıl və rasional şəkildə reallaşdırılır. Gənclərin özünün inkişafını, potensialının reallaşdırmasını, bacarığını nümayiş etdirməsini, təhsilini yüksək səviyyədə almasını, onların xaricdə bu prosesi keçməsini təmin edən Azərbaycan dövlətinin məqsədyönlü fəaliyyəti sayəsində hazırda gənclərimiz ictimai-siyasi və sosial-iqtisadi həyatın bütün sahələrində uğurla çalışırlar. Eyni zamanda, Prezident İlham Əliyevin Sədri olduğu YAP daxilində də gənclərə xüsusi diqqət və qayğı göstərilir.

Əlbəttə ki, dövlətin gənclər siyasətinin yaratdığı şərait nəticəsində, ortaya çıxan imkanlardan bəhrələnən gənclərin böyük qismi də Yeni Azərbaycan Partiyasının ətrafında birləşib. Bu gün üzvlərinin sayının 250 mindən çox olduğu YAP-ın Gənclər Birliyi Azərbaycanın bütün sahələrində baş verən proseslərdə ön mövqedə durur. İstər ictimai-siyasi, istərsə də sosial-iqtisadi sahələrdə orijinal layihələri ilə sözünü deyən YAP gəncləri dövlətin onlara olan diqqət və qayğısının əyani sübutlarını nümayiş etdirirlər.

YAP-ın layihələrində ölkə əhalisinin ən fəal təbəqəsini təşkil edən







gənclərin özünəməxsus yer tutması, eləcə də, diqqət və qayğı ilə əhatə olunmuş gənc nəslin partiyamızın qüdrətinin və gücünün əhəmiyyətli dayaqlarından birinə çevrilməsi, Ümummilli Lider Heydər Əliyevin dediyi kimi, "Gənclər bizim partiyamızın sıralarında xüsusi qayğıya malik olmalıdırlar" fikrinin reallaşmasını təsdiq edir.

Partiyaya gənclərin axını YAP-da gənclik enerjisini artırmaqla gələcək inkişafımıza da ən etibarlı təminat yaradır. Qürurla deyə bilərik ki, YAP-ın gəncləri Ümummilli Lider Heydər Əliyevin ideyalarını fəal şəkildə təbliğ edir və hazırda Prezident İlham Əliyevin ətrafında sıx birlik nümayiş etdirirlər. Şübhəsiz ki, Azərbaycan gənclərinin YAP-ın sıralarına qoşulmalarının, öz siyasi talelərini bu partiya ilə bağlamalarının da ciddi əsasları var. Partiyamızın sıralarına, xüsusilə, intellektli, bilik və bacarıqlı, kreativ və müxtəlif sahələrdə nailiyyətlər qazanmış gənclərin qoşulduğunu nəzərə alsaq, bu əsasların hansı amillərə bağlı olduğunu əminliklə söyləmək olar. Bu, o deməkdir ki, YAP gənclərə öz bilik və bacarıqlarını nümayiş etdirmək üçün bütün şəraiti yaradır və gənclərimiz bu partiyanın vasitəsilə özlərini cəmiyyətə təqdim edə bilirlər. Bu mənada, əminliklə demək olar ki, bu gün YAP nəinki ölkədə, hətta Cənubi Qafqaz regionunda ən böyük gənclər ordusunu birləşdirən yeganə siyasi təşkilatdır.

YAP siyasi partiya olmaqla yanaşı, eyni zamanda, gənclər üçün bir inkişaf məktəbidir. Çünki partiyanın təşkil etdiyi bütün layihələrin əsas fəlsəfəsini gənclərin milli ruhda yetişdirilməsi təşkil edir. Belə layihələrin sırasında da, qeyd etdiyimiz kimi, YAP Gənclər Birliyinin təşkil etdiyi "Yay məktəbi"dir.

"Yay məktəbi", zaman keçdikcə, gənclərin dialoq və inkişaf platformasına çevrilir. "Yay məktəbi", eyni zamanda, cəmiyyətimizin avanqard qüvvəsi olan gənclərin kreativ və intellektual bacarıqlarının aşkara çıxarılması, reallaşdırılması və özünüsübut məkanıdır. Bu cür məktəblər gənclər arasında ünsiyyətin yaranmasına, ölkənin ictimai-siyasi, sosial-iqtisadi həyatı ilə bağlı fikirlərin mübadiləsinə şərait yaradır. YAP-ın təşkil etdiyi bu cür məktəblər cəmiyyətimiz üçün yüksək intellekti, kreativliyi və bacarığı olan gənclər yetişdirir. Burada iştirak etmiş hər bir gənc donor təşkilatlarla işləməyi, layihələr yazmağı öyrənir, həmçinin, seçki prosesilə bağlı mühüm məqamları mənimsəyir və əlbəttə ki, onların potensialı müxtəlif təqdimatlar vasitəsilə reallaşdırılır.

Bu məktəblər hələ uzun müddət əvvəllər formalaşmış və bəzən də gənclər arasında problemlərə səbəb olmuş region və Bakı gəncləri arasındakı sərhədləri də aradan qaldırır. Məhz hər il keçirilən "Yay məktəbi" yüzlərlə gənci bir-birinə dost edir, gənclər öz aralarında təmaslar qururlar, müxtəlif regionlardan olanlar bir-birinin düşüncəsinə və hərəkətlərinə hörmətlə yanaşırlar. Eyni zamanda, gənc nəsil arasında ünsiyyət möhkəmlənir və gənclərin dostluq üzərində qurulmuş ümumrespublika şəbəkəsi formalaşır. "Facebook", "Twitter" kimi sosial şəbəkələrdə qrupların yaradılması və məktəbdən sonra illərlə formalaşmış münasibətin və ünsiyyətin qorunub-saxlanılması söylənilənləri təsdiqləyir. "Yay məktəbi"ndən sonra müxtəlif dinlərin və mədəniyyətlərin daşıyıcısı olan region gənclərinin paytaxt gənclərini bölgələrə dəvət etməsi prosesi də qurulan işin nə qədər düzgün olduğunu sübut edir. Bu mənada, "Yay məktəbi"ni inteqrasiya və tolerantlıq platforması da adlandıra bilərik.

Bununla yanaşı, "Yay məktəbi"ndə gənclər partiya rəhbərliyi, deputatlar, dövlət nümayəndələri ilə görüşlər keçirir və səmimi atmosferdə baş tutan dialoqlarda onlar dövlət idarəçiliyi haqqında daha dəqiq məlumatlar alırlar. Bütün bunların nəticəsində, bir daha vurğulanmalıdır ki, "Yay məktəbi"ndə gənclərin dünyagörüşü genişlənir, hadisələrə və proseslərə baxış bucağı dəyişir. Bu isə, təbii ki, həyata yenicə atılan gənclərin inkişafı baxımından, onlara bələdçi olacaq və səhv addımlar atmaqdan sığortalayacaq.

Göründüyü kimi, ölkəmizdə bu cür məktəblər təşkil edən yeganə siyasi təşkilat YAP-dır. Bununla partiyamız Azərbaycan gəncliyinin sağlam, vətənpərvər və Vətənə sadiq vətəndaşlar kimi yetişməsinə öz töhfəsini verir. Ona görə də, ölkəmizin alternativsiz siyasi qüvvəsi olan YAP uğurlu fəaliyyəti ilə gənclərin güclü dəstəyini qazanıb. Gənclər YAP tərəfindən atılan bu cür addımları həmişə yüksək qiymətləndirib və sözügedən aksiyalarda böyük fəallıq nümayiş etdiriblər. Məhz bütün bunlara görə, bir daha əminliklə demək olar ki, bu gün YAP bir tarixi missiyanı reallaşdırır. Elə bir missiyanı ki, bununla Azərbaycan gəncliyi daha intellektli, kreativ və bacarıqlı, siyasi şüur və davranış baxımından fəal vətəndaşlar kimi formalaşacaq. Nəticədə, əldə olunmuş intellektual və kreativ dəyərlər dövlətimizin daha da möhkəmləndirilməsinə sərf olunacaq.

***Ramil VƏLİBƏYOV,***
***YAP Nizami rayon təşkilatı gənclər birliyinin sədr müavini,***
***siyasi elmlər üzrə fəlsəfə***

# Düzgün ixtisas, yoxsa işsiz kadr seçimi

***Xəbər verdiyimiz kimi, artıq dünəndən 2019-2020-ci tədris ili üçün ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak üçün ixtisas seçimi başlayıb. Belə ki, hər birimiz üçün ilk seçim etmək çox çətindir. Onun birbaşa gələcəyimizə təsir etdiyini düşünəndə isə bu, bizdən daha diqqətli olmağı tələb edir. Düzdür, sevdiyimiz peşə bizə hər zaman uğur qazandırmaya bilər. Amma unutmayaq ki, peşə təkcə pul qazanmaq, dolanışıq məqsədi ilə seçilmir, bəlkə bunlardan da əhəmiyyətlisi özünü ifadə etmək, doğrultmaqdır.***



Bu baxımdan hər hansı peşəyə yiyələnmək üçün atdığımız ilk addım olan ixtisas seçimi bizim məqsədlərimizi müəyyənləşdirməkdə çox vacibdir desək yanılmarıq. Etiraf edək ki, bu seçimdə ətraf müdaxilələrin olması, bir çox peşəkar kadrların elə beşikdəcə boğulmasına gətirib çıxarır. Hətta intiharlarla da nəticələndiyinin şahidi olmuşuq. Bəs o zaman ixtisas seçimini necə etməli, gənclərimizin sevdiyi peşəyə yiyələnməsinin qarşısına çəkilən sərhədləri necə aşmalıyıq?

SİA bu sualların cavabını ekspertlərlə müzakirə edib.

Azərbaycan Respublikasının əməkdar müəllimi, təhsil eksperti Almaz Həsrət bildirib ki, ixtisas seçərkən gənclər ilk növbədə daxili istəklərini önə çəkməlidirlər.

İxtisas seçimində ailə büdcəsinin önəmi

Onun sözlərinə görə, seçim ailə üzvlərinə görə deyil, abituriyentin istəyinə uyğun olmalıdır: "İstənilən ixtisasın balı özəl və dövlət ali təhsil müəssisələrində fərqlidir. Lakin burada ailə büdcəsinin də nəzərə alınması əsas şərtlərdən biridir. Əgər gəncin seçdiyi ixtisas həm istəyi həm də ailə büdcəsi ilə uyğunlaşırsa, o zaman həmin peşə üzrə təhsilinin seçilməsi düzgündür. Yox əgər büdcəyə uyğun gəlir, amma istəmədiyi ixtisasdırsa, burada abituriyent yanlışlığa yol vermiş olur. Çünki, bu cür seçim abituriyentlərin sentyabr ayında başlayacaq dərslərindəki davamiyyətinə təsir etməklə yanaşı, oradakı mövzuları anlamadıqlarını başa düşəcəklər. Bu baxımdan gənclər ixtisas seçimində daha diqqətli olmalı, buna xüsusi önəm verməlidirlər".

### İşsiz kadr olmaq istəmirsinizsə...

A.Həsrət söyləyib ki, hər bir gənc ixtisas daşıyıcısı olacağına, öz potensiallarını seçdikləri istiqamətdə çıxara biləcəklərinə əmin olaraq addım atmalıdır: "Çünki istənilməyən ixtisas da inkişaf etmək, peşəkar kadr kimi yetişmək mümkün deyil. Onlar ali təhsil müəssisəsini bitirsələr belə gələcəkdə yalnız işsiz kadr kimi əziyyət çəkməli olacaqlar. Hər bir abituriyentin içindəki potensialını yalnız özü görə bilir. Hətta valideynlərin belə övladlarının potensialını dərindən görüb, dərk etməsi mümkün deyil".

### Yanlış ixtisas seçiminin FƏSADLARI

Ekspertin fikrincə, yanlış ixtisas seçimi ilk növbədə abituriyentin özünə, daha sonra ailəsinə, ətrafına, cəmiyyətinə və eləcə də ölkə elminə böyük ziyan vurur: "Çünki yanlış ixtisas, qavrama, yanlış insanın yetişməsinə yol açır. Xüsusilə də valideynlər bu səhvə yol verməməli, övladlarının seçim istəyinə mane olmamalıdırlar. Əgər imtahanda toplanan bal azlığına görə istənilən ixtisası seçmək imkanı yoxdursa, valideynlər övladlarının daha da dərindən hazırlaşıb növbəti ildə öz istəyinə uyğun peşə üzrə təhsil almasına şərait yaratmalıdırlar. Abituriyentlər özləri də bu məqama diqqət etməlidirlər. Əgər ilk ildə istədikləri ixtisasa görə az bal toplayıblarsa, o zaman yanlış seçim etməkdənsə, daha bir il hazırlaşaraq növbəti ildə öz istəklərinin arxasınca getməyə üstünlük verməlidirlər. Səhv addım abituriyentlərin daxildəki potensialını tamamilə məhv etmiş olur. Ümumiyyətlə, hər kəs öz inkişaf edəcəyi, səmərə, xeyir verə biləcəyi istiqamətə yönəlməlidir. Əks halda, bundan ilk növbədə özü, həm də Azərbaycan elmi ziyan çəkmiş olacaq".

### Problemin Azərbaycan mühitinə uyğun həlli

İxtisas seçimi ilə bağlı problemlərin həllinə gəlincə A. Həsrət vurğulayıb ki, mövcud çatışmazlıqlar xarici ölkələrin təcrübələrinə istinadən deyil, sırf Azərbaycan mühitinə uyğun şəkildə həll olunmalıdır: "Xaricdəki problem necə çözülürsə, onun eynilə bizdə də təkrar edilməsi düzgün deyil".

### TƏKLİF VAR!

Əməkdar müəllim yanlış ixtisas seçiminin qarşısının alınması istiqamətində Dövlət İmtahan Mərkəzinə (DİM) təklif də irəli sürüb: "Hesab edirəm ki, DİM tərəfindən yüksək bal toplayan, lakin istədiyi ixtisasa daxil olmaq üçün balı çatışmayan abituriyentlər üçün növbəti ilin imtahanında iştirak etmək üçün xüsusi bonuslar təklif oluna bilər. Misal üçün əgər gənc 400 bal toplayıbsa və onun istədiyi ixtisasın balı 500 olduğu üçün ali məktəbə bu il qəbul ola bilmirsə, o zaman həmin abituriyenlər növbəti il imtahan verəndə bu il topladıqları 400 balın hər 100 balına 25 bal (rəqəm dəyişə də bilər) bonus əldə etmiş olsunlar. Yəni bu il qəbul olmayan abituriyent artıq biləcək ki, növbəti il imtahan verəndə onun 100 bal bonusu var. Əgər gənc imtahandan 450 bal toplayar və üzərinə də həmin 100 bonus gələrsə, o zaman abituriyent istədiyi ixtisası sərbəst şəkildə seçmək imkanı qazanar. Belə olan halda, kifayət qədər bal toplamayan abituriyentlər imtahan verdikləri il istəmədiyi ixtisasda təhsil almaqdansa, daha da hazırlaşıb növbəti ildə yüksək nəticə əldə etmək, eləcə də bonusundan yararlanmaqla istədiyi peşəyə yiyələnməyə üstünlük verəcək. Bu, həm övladlarımızın məcburiyyət qarşısında qalıb mütləq şəkildə bu il ali məktəbdə oxuyum fikrindən daşındırmaqla yanaşı, həm də Azərbaycan elmində peşəkarların sayının artmasına şərait yaradacaq".

Təkliflə bağlı abituriyentlər arasında sorğu apardığını deyən A. Həsrət onun gənclər tərəfindən müsbət qarşılandığını dilə gətirib.

Təhsil eksperti Etibar Əliyev isə bildirib ki, ixtisas seçimi birmənalı şəkildə abituriyentin topladığı ballarla bağlıdır: "Bal yüksək olduqda seçim imkanları da genişlənir, daha rasional olur. Aşağı bal toplayanlar isə daha çox ödənişsiz ixtisaslar axtarırlar. Bunun özü yaxşı tendensiya deyil".

### Elmi sahələri niyə seçmirik?

Qəbul imtahanı zamanı maksimum nəticə göstərən abituriyentlərin də ixtisas seçimində müəyyən problemlərin olduğunu deyən ekspert söyləyib ki, bəzən yüksək bal toplayanlar da seçimini düzgün etmirlər: "Dünya təcrübəsinə baxdıqda görürük ki, yüksək qabiliyyətə malik, istedadlı gənclərin böyük əksəriyyəti təmiz elmi, yəni fizika, riyaziyyat, biologiya, ədəbiyyat və tarixi seçirlər. Amma bizdə isə bu hal demək olar ki, nəzərə çarpmır. Yüksək toplayan abituriyentlər seçdiyi ixtisasın proqnozunu bilmədən daha çox prestijli sahələrə üstünlük verirlər. Bu elə məsələdir ki, burada əsas fikir valideynin deyil, abituriyentin olmalıdır. İxtisas seçimində abituriyentin hansı sahəni sevib və ona bağlı olduğu önəmlidir".

### Ənənəvi ixtisaslar

Ekspert vurğulayıb ki, hər bir ixtisas qrupunun özünün şah ixtisası var: "Aydındır ki, IV ixtisas qrupu üzrə Azərbaycan Tibb Universitetinin ixtisasları önəm kəsb edir. III ixtisas qrupu üzrə Hüquq, II ixtisas qrupunda İqtisad Universitetinin ixtisasları üzrə ciddi rəqabət gedir. I ixtisas qrupu yeganə qrupdur ki, orada ixtisaslar qarışıqdır. Abituriyentlər bu qrupda həm Azərbaycan Dövlət Neft və SənayeUniversitetinin, Texniki Universitetin, həm də digər ali məktəblərin ixtisaslarını seçə bilirlər. II, III, IV ixtisas qruplarında gedən mübarizənin bir tərəfdən əhəmiyyəti odur ki, burada mübarizə daha yüksək bal toplayanlar arasında gedir və nəticə etibarı ilə bu ixtisaslar üzrə mütəxəssislər yetişə bilir".

Qeyd edək ki, ixtisas seçimi bütün ixtisas qrupları üzrə iyulun 24-dən avqustun 6-dək internet vasitəsilə aparılacaq. İxtisas seçmək hüququ olan abituriyent ali təhsil müəssisələrinin imtahan verdiyi ixtisas qrupuna (qruplarına) aid olan 15-dək ixtisas kodunu qeyd edə bilər. İxtisas seçimi mərhələsində abituriyentlər qəbul olmaq istədikləri ixtisasların kodlarını www.eservices.dim.gov.az/erizebak/ixtisas1 internet ünvanında yerləşən "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nə daxil edib təsdiq etməlidirlər.

***Nailə Məhərrəmova***

# Ermənistana layiq olduğu cəza veriləcək

## *Elşən Manafov: "Beynəlxalq güclər tərəfindən Ermənistana qarşı hər hansı bir sanksiyanın tətbiqi meydanda yoxdur"*

***Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq hüququn ikili yanaşması davam edir. Məhz bu səbəbdən də, problem uzun illərdir öz həllini tapmayıb. Politoloq Elşən Manafov "Səs" qəzetinə açıqlamasında bildirib ki, Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi 25 ildən artıq bir dövrü əhatə edir: "Dəfələrlə ölkə prezidentləri, xarici işlər nazirləri və digər səviyyələrdə baş tutan görüşlərdə müsbət nəticə əldə olunmamışdır. Bütün hallarda, Ermənistan irəli sürülən təklifləri lazımi səviyyədə dəyərləndirməmiş və torpaqlarımızın azad olunması ilə bağlı danışıqları pozmuşdur.***



Demək olar ki, işğalçı Ermənistan Dağlıq Qarabağ münaqişəsinin həllini uzatmağa çalışır. İndiki şəraitdə Ermənistanın bu davranışlarının qarşısının alınmasının yeganə yolu Ermənistana qarşı beynəlxalq hüququn prinsiplərinə söykənərək, müvafiq sanksiyaların tətbiq olunmasıdır. Hazırkı məqamda, beynəlxalq güclər tərəfindən Ermənistana qarşı hər hansı bir sanksiyanın tətbiqi meydanda yoxdur. Nə qədər beynəlxalq hüququn ikili yanaşması davam edəcək və Ermənistana münasibətdə fərqli bir davranış ortaya qoyulacaqsa, işğalçı ölkə yaranmış cəzasızlıq şəraitindən sui-istifadə edərək, Dağlıq Qarabağ münaqişəsi ətrafında aparılan danışıqlar prosesinin davam etdirilməsinə imkan verməyəcək".

Politoloq onu da əlavə edərək, bildirib ki, əslində, Dağlıq Qarabağ münaqişəsi MDB məkanında ən uzunmüddətli və 1-ci münaqişə ocağıdır: "Münaqişənin həlli üçün uzun müddətdir danışıqlar prosesi gedir. Ancaq ikili standartlar bu gün də bir çox ölkələrin siyasətində önəmli yer tutur. Ermənistanın işğalçı siyasətinə qarşı BMT qətnamələrinin olmasına baxmayaraq, hələ də Ermənistana qarşı sanksiyalar tətbiq olunmur. Bunun əsas səbəblərindən biri, bəzi ölkələrin regionda xüsusi və fərqli maraqlarının olması, münaqişə vəziyyətindən istifadə edərək, Azərbaycanın güclü və müstəqil siyasətinə təsir göstərmək istəklərindən irəli gəlir. Ancaq Ermənistan xalqı özü də bu siyasətdən əziyyət çəkir, əhalinin 3/4-ü yoxsulluq həddində yaşayır".

***GÜLYANƏ***

ARAŞDIRMA

# Təhsil sahəsində aparılan islahatlar davamlıdır

***Müstəqil Azərbaycanın sosial-iqtisadi və mədəni-mənəvi inkişafının son on altı illik tarixi, bilavasitə dünya siyasi liderləri sırasında böyük imicə malik olan Azərbaycan Prezidenti İlham Əliyevin adı ilə bağlıdır. Dövlət başçısı ölkəyə rəhbərlik etdiyi dövr ərzində bütün sahələrdə böyük nailiyyətlər əldə edilmişdir. Bu gün ölkəmizdə qeyri-neft sektorunun inkişafı ilə əlaqədar həyata keçirilən dövlət proqramları, aparılan islahatlar, yeni layihələrin icrası nəticəsində müasirləşən və modernləşən Azərbaycan beynəlxalq aləmdə neft-qaz, turizm, tolerant, idman, eyni zamanda, innovasiyalar, informasiya-kommunikasiya texnologiyaları, kosmik əlaqələndirmələr ölkəsi kimi tanınıb. 2003-cü ildən bu günə qədər sürətli inkişaf dövrünü yaşayan dövlətimizdə gedən proseslərə həm Dünya Bankı, həm Avropa Yenidənqurma və İnkişaf Bankı yüksək qiymət verir.***




Bu inkişafın dayanıqlı olması üçün, dövlət başçısının çıxışlarının birində qeyd etdiyi kimi, insanlar hazırlıqlı, gənclər bilikli olmalıdırlar. İnkişaf etmiş ölkələrin keçdiyi tarixi yola və bugünkü inkişafına nəzər salsaq, aydın görərik ki, həmin dövlətlərdə təhsilə, elmi, inkişafa böyük önəm verilir və islahatlar aparılır. Vurğulamaq yerinə düşər ki, müasir dövrümüz elm, təhsil və qlobal düşüncə, Azərbaycan təhsilinin dünyaya inteqrasiyası dövrü kimi səciyyələnir. Bu, dövlət tərəfindən Azərbaycan təhsilinə göstərilən diqqət nəticəsində reallaşır. Yaşadığımız "Təhsil və informasiya əsri"ndə ölkəmiz təhsilin keyfiyyəti baxımından yeni mərhələni yaşayır. Prezident tərəfindən təhsilə böyük önəm verilməsi, yeni proqram və layihələrin və təhsil islahatlarının həyata keçirilməsi Azərbaycan təhsilinin dünya standartları səviyyəsində qurulmasına gətirib çıxarıb. "Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsil bizim gələcəyimizdir" deyən Azərbaycan Prezidenti Azərbaycanda savadlılığın təxminən 100 faiz olduğunu bildirib: "Bu, çox böyük göstəricidir. Elə etməliyik ki, bütün uşaqlar savadlı, bilikli olsunlar, gələcəkdə özləri üçün gözəl həyat qura bilsinlər, dövlətimiz üçün dəyərli vətəndaşlar olsunlar".

### "NEFT KAPİTALINI İNSAN KAPİTALINA ÇEVİRMƏLİYİK!"

Cənab İlham Əliyev Prezidentlik fəaliyyətinin ilk illərində "Neft kapitalını insan kapitalına çevirməliyik!" devizi altında təbii resursları əsaslanan iqtisadiyyatdan biliklər iqtisadiyyatına keçidi ölkənin strateji hədəfi elan etməsi əbəs deyildi. Qeyd etdiyimiz zaman məsafəsində təhsilin maddi-texniki bazasının gücləndirilməsi, onun infrastrukturunun müasir tələblər səviyyəsində təşkili və təhsilin prioritetlərinin dünya elminin inkişaf tendensiyaları istiqamətində qurulmasında əhəmiyyətli nailiyyətlər əldə edilib. Təhsil müəssisələrinin müasir informasiya və elmi-metodiki təminatı, təhsil infrastrukturunun yenilənməsi məqsədi ilə dövlət proqramları qəbul edilmiş və layihələr həyata keçirilmişdir. Regionların sosial-iqtisadi inkişafı, yoxsulluğun azaldılması, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması ilə bağlı qəbul olunan dövlət proqramlarında da məktəb tikintisinə xüsusi önəm verilir. Bakı və Abşeronun sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunan dövlət proqramlarında yeni məktəblərin tikintisinə diqqət yetirməklə yanaşı, mövcud məktəblərin əsaslı təmirinə də yer ayrılıb. Yeni təhsil müəssisələrinin tikintisi, mövcud məktəblər üçün əlavə korpusların inşası, onların əsaslı təmiri, müasir avadanlıqlarla, laboratoriyalarla təminatı, istilik sisteminin bərpası nəticəsində, ümumilikdə, ölkə üzrə 1 milyondan çox şagirdin təlim şəraiti yaxşılaşdırılmışdır. Təhsil ocaqlarında informatika, laboratoriya otaqları, idman və akt zalları, hərbi otaqlar fəaliyyət göstərir, internet sistemi və müasir tədris avadanlıqları ilə təchiz olunub. Azərbaycan Respublikası Prezidentinin diqqət və qayğısı nəticəsində, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü, Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə ümumi təhsil müəssisələrinin infrastrukturunun müasirləşdirilməsi istiqamətində əhəmiyyətli işlər görülmüşdür. Son on altı ildə 3200-dən çox məktəb binası tikilmiş və ya əsaslı təmir edilmişdir. Ölkənin bütün məktəblərinin 72 faizinin binası yeni tikilmiş və ya əsaslı təmir olunmuşdur. Məktəb tikintisi sahəsində həyata keçirilən tədbirlər nəticəsində, 1 milyondan çox şagirdin təlim şəraiti əhəmiyyətli şəkildə yaxşılaşdırılmış, ikinci növbədə, oxuyan şagirdlərin sayı 16,8 faizə enmiş, başqa sözlə, şagirdlərin 83,2 faizinə, birinci növbədə, təhsil almaq imkanı yaradılmışdır.

Təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı ölkə Prezidenti İlham Əliyev tərəfindən cari il iyunun 18-də imzalanmış sərəncamlar təhsilin inkişafına davamlı dövlət qayğısının daha bir parlaq nümunəsidir. Sərəncamlara əsasən, regionlarda modul tipli məktəblərin quraşdırılması, Bakı şəhəri və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası işlərinin davam etdirilməsi, təhsil müəssisələrinin qəzalışdırılması məqsədilə. ümumilikdə. 62,7 milyon manat vəsait ayrılmışdır. Bu istiqamətdə həyata keçiriləcək tədbirlər təhsil infrastrukturunun müasirləşdirilməsinə və keyfiyyət göstəricilərinin daha da artırılmasına imkan verəcəkdir.

Son illərdə ölkəmizdə formalaşmış müsbət demoqrafik şəraitə görə birinci siniflərə qəbulda artım dinamikası müşahidə edilir. Belə ki, statistik məlumatlara əsaslanaraq, deyə bilərik ki, 2013-cü ildə bu göstərici 138 min olmuşdusa, bu il birinci siniflərə 165 mindən çox uşağın qəbul edilməsi gözlənilir. Ümumilikdə, şagird sayında da müsbət dinamika müşahidə edilməkdədir. Belə ki, 2013-cü illə müqayisədə şagirdlərin sayı 240 mindən çox artaraq, 1 milyon 600 min nəfəri ötmüşdür.

### DÜNYADA GEDƏN QLOBALLAŞMA VƏ İNTEQRASİYA PROSESİ ÖLKƏMİZ ÜÇÜN YÜKSƏK ELMİ POTENSİALA MALİK MÜTƏXƏSSİSLƏRİN HAZIRLANMASINI TƏLƏB EDİR

Milli intibahı təmin edən ən başlıca vasitə olan təhsil həm də cəmiyyət qarşısında dayanan bir çox əsaslı problemlərin həllində vacib rola malikdir. Dünyada gedən qloballaşma və inteqrasiya prosesləri ölkəmiz üçün yüksək elmi potensiala malik mütəxəssislərin hazırlanmasını tələb edir. Dövlət tərəfindən təhsilin inkişafına göstərilən yüksək diqqət, eyni zamanda, Azərbaycanın dünya miqyasında tanıdılmasına və layiqli yerinin təmin olunmasına xidmət edir. Azərbaycanlı gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almasını və ölkənin inkişafında yaxından iştirak etməsini təmin etmək məqsədi ilə Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı Sərəncama uyğun olaraq hazırlanmış "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" istedadlı gənclərin xaricdə təhsil almasına yollar açmış oldu. Dövlət Proqramı əsasında Azərbaycan gəncləri ümumbəşəri dəyərlər əsasında təhsil almaq imkanına yiyələnirlər. Xarici ölkələrə tələbə göndərilməsi məqsədilə ixtisaslar seçilərkən ölkə iqtisadiyyatının davamlı inkişaf strategiyası, iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin güclənməsi, kadrların idarə edilməsi, idarəetmə sistemində aparılan islahatların ehtiyaclarının ödənilməsi və s. müasir dövrün tələblərinə uyğunlaşdırılması kimi prioritet istiqamətlər nəzərə alınır. Hazırda uğurla həyata keçirilən Dövlət Proqramı əsasında Azərbaycan gəncləri ABŞ, Böyük Britaniya, Almaniya, Fransa və başqa ölkələrdə təhsil alırlar. İnsan kapitalının inkişafına yönəlmiş həmin proqram çərçivəsində, ümumilikdə, 3558 nəfər Azərbaycan vətəndaşı Dövlət Neft Fondu hesabına maliyyələşdirilməklə, dünyanın 32 ölkəsinin 379 aparıcı universitetində təhsil almaq hüququ qazanmışdır. Həmin universitetlər dünyanın 500 ən güclü universiteti sırasındadır. Proqram çərçivəsində təhsil almış tələbələrin böyük əksəriyyəti məzun olmuş və ölkəmizə qayıtmışdır. Bu gün müxtəlif proqramlar üzrə xaricdə təhsillərini bitirib, Azərbaycana qayıtmış yüzlərlə məzun müxtəlif sahələrdə çalışaraq, ölkəmizin iqtisadi, mədəni və elmi potensialının gücləndirilməsinə layiqli töhfələrini verməkdədirlər. Hazırda məzunların 60 faizi özəl, 40 faizi dövlət sektorlarında fəaliyyət göstərir. Bu siyasətin davamı kimi, "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. Proqram ölkəmizdə ali təhsil sisteminin inkişafında yeni bir mərhələnin əsasını qoymuşdur. Proqramda ali təhsilin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları və xarici mütəxəssislərin cəlb olunması yolu ilə təkmilləşdirilməsini və xaricdə doktorantura təhsili vasitəsilə universitetlərimizin akademik potensialının gücləndirilməsi nəzərdə tutulmuşdur.

### AZƏRBAYCAN TƏHSİLİ MÜASİR ÇAĞIRIŞLARA CAVAB VERƏN BEYNƏLXALQ STANDARTLARA UYĞUNLAŞDIRILIB

Ardıcıl olaraq, təhsil sahəsində köklü islahatların aparılması məktəblilərin burada şəxsiyyət kimi formalaşmasına təsirini göstərməkdədir. Müasir dövrümüzdə bu islahatların ən mühüm mərhələsi yaşanılır. Təhsilin məzmunu və keyfiyyəti və təlimin təşkilinə verilən tələblərdə ciddi yeniləşmə və müasirləşdirmə prosesləri gedir. Ümumiyyətlə, Azərbaycan təhsilini beynəlxalq standartlara uyğunlaşdırmaq üçün atılan addımlar, onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin "qara qızıl"ın insan kapitalına çevrilməsi çağırışı uğurla reallaşmaqdadır. Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycan təhsilinin inkişafı üzrə Dövlət Strategiyasının təsdiq olunması haqqında" imzaladığı Sərəncam isə, təhsil islahatlarının daha sistemli aparılması və ölkənin inkişafına daha yüksək töhfələr vermək istiqamətində düşünülmüş konseptual bir sənəd oldu. Ötən müddət ərzində, strategiyanın həyata keçirilməsi nəticəsində, bütün pillə və səviyyələr üzrə təhsilin keyfiyyət göstəriciləri yüksəlmiş, uşaq və gənclərin təhsilalma imkanlarının genişləndirilməsi, müasir idarəetmə modellərinin tətbiqi, kadr potensialının səriştə və kompetensiya baxımından gücləndirilməsi, ümumi təhsil müəssisələrinin kadrlarla təminatı, müəllim fəaliyyətinin qiymətləndirilməsi və stimullaşdırılması də s. əhəmiyyətli nailiyyətlər əldə edilmişdir.

Keyfiyyətcə yeni, daha yüksək tarixi inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan təhsil sahəsində, eləcə də, digər sahələrdə bu uğurların əldə olunmasına ölkədəki sabitlik və təhlükəsizlik əsas şərtdir. Cənab Prezidentin qeyd etdiyi kimi: "Sabitlik pozulan zaman inkişaf da dayanır, ölkə iqtisadiyyatı tənəzzülə uğrayır və sərmayə qoyuluşu dayanır. Bir sözlə, sabitlik hər bir ölkənin inkişafı üçün başlıca şərtdir. Azərbaycanda isə sabitliyin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və eyni zamanda, bizim apardığımız siyasətdir. Çünki bizim siyasətimiz milli maraqlara söykənir, milli maraqlarımız bizim üçün hər şeydən üstündür".

*Nəzakət ƏLƏDDİNQIZI*

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

25 iyul 2019-cu il

# Çıraqqala abidəsinin bərpa işlərinə başlanılıb



***Dövlət tərəfindən, bütün sahələrə olduğu kimi, xüsusi tarixi əhəmiyyət daşıyan nümunələrə-qalalara, istehkamlara, məbədlərə, təbii qoruqlara diqqət və qayğı artıb. Ölkə ərazisində yerləşən bir sıra abidələrdə, Bakı şəhərində "Şirvanşahlar Saray Kompleksi", "Məhəmməd" məscidi, "Kiçik Karvansaray", "Bazar meydanı", "Məktəb-məscid", Şəki rayonunda "Şəki Xan Sarayı", qala divarları, "Kiş" Alban məbədi, "Aşağı Karvansaray", "Şəkixanovların Evi", Quba rayonunun Xınalıq kəndində "Əbu-Müslüm" və "Xıdır Nəbi" məscidləri, Şərur rayonunda "Qudi-Xatun" türbələri, Babək rayonunda "Əshab-ül-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksi, Gəncə şəhərində Nizami Gəncəvi Məqbərəsi, Hacıqabul rayonunda "Pir Hüseyn" Xanəgahı və digər mühüm tarixi-memarlıq əhəmiyyəti olan abidələrdə bərpa-konservasiya işləri aparılıb.***

Görülən işlər tarixin daş yaddaşı olan abidələrin nəsillərdən-nəsillərə ötürülməsində əhəmiyyətlidir. "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə dövlət başçısının Sərəncamı bu sahədə həyata keçirilən tədbirlərin davamı oldu. Dövlət Proqramına əsasən, milli-mədəni irsin qorunması istiqamətində aparılan islahatların davamı olaraq, daşınmaz tarix və mədəniyyət abidələrinin, tarixi ərazilərin, tarix və daşınmaz mədəni irsin bərpası, öyrənilməsi, təbliği və inkişafı üzrə tədbirlərin həyata keçirilməsinə yönəldilib.

Bu gün Azərbaycanda 28 tarixi qoruq var ki, onların 14-ü tarixi-mədəniyyət qoruğu, 8-i tarixi-memarlıq, 2-si tarixi-bədii qoruqdur. Təkcə Yanardağ həm tarixi-mədəniyyət, həm də təbiət qoruğu olaraq, fəaliyyət göstərir. Qobustan Dövlət Tarix-Bədii Qoruğu, Nardaran Tarix-Mədəniyyət Qoruğu, Keşikçidağ Dövlət Tarix-Mədəniyyət Qoruğu, Lahıc Tarix-Mədəniyyət Qoruğu, "Çıraqqala" Tarixi-Memarlıq Qoruğu, "Şabran şəhəri" Tarixi Qoruğu, "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğu və s. dövlət səviyyəsində qorunur və müfahizə olunur. Qoruqların fəaliyyəti müasir tələblər səviyyəsində təşkil edilir. Ziyarətçilərin qoruqları rahatlıqla ziyarət etmələri üçün müvafiq infrastrukturun yaradılmasından tutmuş, elmi-tədqiqatların aparılmasına qədər ən müxtəlif istiqamətlərdə tədbirlər həyata keçirilir. Qoruqların bir qismindən turizm məqsədləri üçün istifadə edilir.

Son illərdə Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları ilə ölkə ərazində yerləşən bir çox abidələrin qorunması təmin edilib, əraziləri abadlaşdırılıb və yeni turizm marşrutları müəyyən olunub. Bu qoruqlar müasir tələblərə cavab verən turizm obyektlərinə çevrilməkdədir. Görülən işlərin davamı olaraq, dövlət başçısı 2018-ci il 3 oktyabr tarixində "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğu haqqında Sərəncam imzalamışdır.

Bu ilin mart ayında Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən, ölkəmizin ən qədim tarixi abidələrindən biri olan Çıraqqalada möhkəmləndirmə və bərpa-konservasiya işlərinin aparılması üçün 2 milyon manat ayrılıb. Ötən müddət ərzində, bərpa-konservasiya işlərinin aparılması üçün zəruri tədbirlər həyata keçirilib, layihə-smeta sənədləri hazırlanıb. İyul ayının əvvəlindən isə, bərpa işlərinə start verilib. Şabran rayonu ərazisində yerləşən, V-VI əsrlərə aid Çıraqqala abidəsində bərpa işlərinə başlanılıb.

Çıraqqala, mərkəzi qala da daxil olmaqla, 17 bürcdən ibarət düzbucaqlı formada olub. İndi həmin bürclərin ancaq üçü salamat qalıb. Ümumilikdə isə, qalanın izləri məlum olan 8 bürcündə bərpa-konservasiya işləri həyata keçiriləcək. Görüləcək işlər zamanı bürclərarası qala divarları da bərpa-konservasiya olunacaq, ərazidə arxeoloji tədqiqatlar da aparılacaq. Tarixi abidəni ziyarət edənlərin rahatlığını təmin etmək məqsədi ilə ərazidə yerləşən meşənin içindən qalaya qalxacaq piyadalar üçün yol, eləcə də, qala divarları boyu yol salınacaq.

Çıraqqalanın bərpası üzrə işlərin bir il ərzində yekunlaşdırılması nəzərdə tutulub. Lakin ərazinin mürəkkəb relyefi və hava şəraiti bu müddətin uzanmasına təsir edə bilər.

Göründüyü kimi, ölkə ərazisində olan qoruqlarda, tarixi ərazilərdə dövlət tərəfindən genişmiqyaslı bərpa-konservasiya, elmi-tədqiqat, yenidənqurma və abadlaşdırma işləri aparılıb və bu iş bu gün də davam etdirilməkdədir. Əsrlərin sınağından keçmiş, təbii təsirlərə məruz qalmış və nəticədə, qəza vəziyyətinə düşmüş tarix və mədəniyyət abidələrinin əksəriyyətində təxirəsalınmaz konservasiya və bərpa işləri aparılır.

***Zümrüd BAYRAMOVA***

## Kolleclərə ixtisas seçimi başlanıb

Ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin (kolleclərin) ixtisas seçimi başlanıb. Dövlət İmtahan Mərkəzindən AZƏRTAC-a bildirilib ki, ümumi ( 9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin (kolleclərin) ixtisas seçimi iyulun 24-dən avqustun 5-i saat 23.59-dək internet vasitəsilə həyata keçirilir.

İxtisas seçiminə qəbul (buraxılış) imtahanında (hər iki mərhələ üzrə) ümumi balı 50-dən, Azərbaycan dili və ya rus dili fənni üzrə balı 20-dən və riyaziyyat fənni üzrə balı 10-dan az olmayan abituriyentlər buraxılırlar. Xüsusi qabiliyyət tələb edən ixtisasların müsabiqəsində fənlər üzrə bal məhdudiyyəti tətbiq olunmur. Xüsusi qabiliyyət tələb edən ixtisasları yalnız müvafiq komissiya tərəfindən keçirilən qabiliyyət imtahanlarından məqbul qiymət alan abituriyentlər seçə bilərlər. Abituriyentlərin qabiliyyət imtahanlarından aldığı qiymətlər gün ərzində elektron məlumat bazasına daxil edilir və onlar günün sonunda ixtisas seçimi edə bilərlər. Abituriyentlər xüsusi qabiliyyət tələb edən ixtisaslarla yanaşı, digər ixtisasları da seçə bilərlər.

## Heydər Əliyev Mərkəzində daha bir unikal sərgi - ikona sənəti sərgisi açılacaq

Oktyabrın 12-də Heydər Əliyev Mərkəzində Rusiya Dövlət Tretyakov Qalereyası və Rus ikonası Muzeyindən toplanmış ikona sənəti inciləri və dini heykəltəraşlıq nümunələrindən ibarət sərgi açılacaq. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzi, Rusiya Dövlət Tretyakov Qalereyası, Rus ikonası Muzeyinin təşkilatçılığı, İmperator Pravoslav Fələstin Cəmiyyətinin dəstəyi ilə təşkil olunacaq sərgi mədəniyyətlərarası əlaqələrin möhkəmlənməsinə xidmət etməklə yanaşı, eyni zamanda milli bədii irsin gözəlliyini və unikallığını çatdırmağa imkan verən mədəni dialoqa da öz töhfəsini verəcək.




"Rusiya imperiyasının ikona sənəti sərvətləri. Tretyakov Qalereyası və Rus ikonası Muzeyindən XVIII - XX əsrin əvvəllərinə aid abidələr" adlı sərgidə izləyicilərə 100-dən çox əsər - ikonalar, heykəltəraşlıq nümunələri, Pasxa yumurtaları təqdim ediləcək. Sərgilənəcək əsərlər rus ikona sənətinin son dövrlərinə aiddir. Həmin vaxtların əsərləri xüsusi dəbdəbəliyi ilə seçilir: qızıl işləmələrə üstünlük verilir və detallar incəliklə işlənirdi. Sərginin eksponatları bu sahənin əsas regionları - Moskva, Tver, Povoljye, Vladimir vilayətinin Palex və Mstera kəndlərini, Ural regionundakı qədim Nevyansk şəhərini əhatə edir.

Ekspozisiyada Rusiya Dövlət Tretyakov Qalereyasından 14 tarixi abidə, layihənin əsas təşkilatçılarından olan Rus ikonası Muzeyindən isə 86 ikona, eləcə də Pasxa yumurtaları nümunələri təqdim ediləcək. Sərginin seçilən eksponatları sırasında XIX əsrin son iki on illiyində - XX əsrin əvvəlində Moskvada öz emalatxanalarını yaradan və yeni paytaxt üslubunun yaradıcılarından olan Mstera ikona sənətinin görkəmli nümayəndələrinin əsərləri də yer alacaq.

## "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə 100-dən çox uyğunluq sertifikatı verilib

Bu ilin fevralından etibarən "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində fəaliyyətə başlayan Azərbaycan Standartlaşdırma İnstitutu sözügedən mərkəz vasitəsilə hüquqi və fiziki şəxslərə 100-dən çox uyğunluq sertifikatı verib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən AZƏRTAC-a bildirilib ki, sertifikat verilən məhsulların böyük əksəriyyətinin həm də ixrac olunduğu nəzərə alınaraq, "bir pəncərə" prinsipi əsasında digər icazə sənədlərinin də alınması ixracatçılar üçün əhəmiyyətli rol oynayaraq daha az xərc və vəsait xərcləməsinə səbəb olur. Sertifikat verilən məhsullara fındıq, xama, kərə yağı, buğda unu, buğda kəpəyi, nar şərabı, şəkərli peçenye, istehsalat sahələri üçün metal konstruksiyalar, polietilen örtüklər, neft turşusu və sair daxildir.

## Azərbaycanda ilk dəfə olaraq dron vasitəsilə kimyəvi mübarizə aparılıb

Ucar rayonunda Çin texnologiyası ilə əkilmiş pambıq sahəsində dron vasitəsilə qırmızı tor gənəsinə qarşı yeni innovativ kimyəvi mübarizə aparılıb. Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildiriblər ki, dron vasitəsilə kimyəvi mübarizə Əkinçilik Elmi-Tədqiqat İnstitutunun "Xəstəlik və zərərvericilərə nəzarət laboratoriyası"nın aparıcı elmi işçisi Etibar İbrahimov və "Bitki seleksiyası" şöbəsinin elmi işçisi Zöhrab Qəribov tərəfindən həyata keçirilib. Dronlar vasitəsi ilə kimyəvi mübarizə fermerlərin marağına səbəb olub.



# Əli Kərimlinin paxırlarını kim açır?

*Razi Nurullayevin adamları ciddi şəkildə hücuma keçiblər*



**Özünü AXCP-nin sədri, Əli Kərimlini isə, yalnız "Yurd" rəhbəri elan edən Razi Nurullayev və tərəfdarları son vaxtlar qarşı tərəfi "siyasi mühacir" alverində ittiham edirlər. Daha dəqiq desək, iddia budur ki, həmin alverlə əvvəllər Müsavat partiyası məşğul olurdu. Lakin müsavatçıların bazarlarına girib, onların biznesinə yiyələnən Ə.Kərimli sonradan, bütünlüklə, bazarı ələ aldı. Hətta indinin özündə bazar öz işindədir və AXCP sədri əlavə vəsaitlər əldə edir. Təbii ki, bu, rəqiblərdə həsəd və paxıllıq hisslərini coşdurur və Ə.Kərimliyə qarşı kəskin nifrət və aqressiya yaradır. R.Nurullayev liderliyindən imtina etdiyi Ə.Kərimlinin bütün "işlərini" təftiş edərək, paxırlarını açıb-tökür.**

### Ortada Qənimət Zahidin adı hallanır

Məsələn, bəlli olub ki, xarici ölkəyə göndərilən hər bir "siyasi mühacir" Ə.Kərimliyə və ya onun şəbəkəsinə 3000 avro pul ödəməlidir. Bu minvalla, o, "qaz vurub qazan doldurur". Həmin məlumatlardan birində deyilir ki, bir neçə il əvvəl, Almaniyaya mühacirət edən Azər Məmmədli adlı bir sabiq "axecepeçi" AXCP sədrinin əsas ortaqlarından biri olan Qənimət Zahidin bəzi mühacirlərə qarşı qərəzli mövqe nümayiş etdirməsindən, barələrində şər və böhtan yaymasından şikayətlənir. O bildirir ki, Almaniyadakı mühacirlərə qarşı törədilən əməllərdə Ə.Kərimlinin "barmağı" var.

Digər tərəfdən, A.Məmmədli bildirib ki, zaman-zaman Köln şəhərində tədbirlər keçirilir və həmin tədbirlərdə iştirak edən cəbhəçilər "Yurd" şefindən imtina edib, R.Nurullayevin bayrağı altına keçəcəklərini bildirirlər: " Biz hamımız Razi Nurullayevə dəstək nümayiş etdirəcəyik. Biz, o tədbirdə, Ə.Kərimlini tanımadığımızı rəsmən bəyan edəcəyik. Çünki o saxtakardır və yalnız öz şəxsi maraqlarını güdür."

### Yaxın günlərdə hər kəs onları görəcək və Əli Kərimlinin, onun dəstəsinin hansı işlər gördüyünün şahidi olacaq

Artıq "Yurd" rəhbəri Ə.Kərimli və dəstəsi, indi Almaniyaya göndərdikləri "siyasi mühacirlərlə" qarşılaşmalı olublar. Ancaq "narazılara" qarşı əllərində heç bir dəlil-sübut olmadığından, aciz vəziyyətdə qalıblar, çünki onların qabağında gözükölgəlidirlər. Q.Zahid və digərlərinin gücü, yalnız "üzlərinə qayıdan şəkkakları" sosial şəbəkələrdə nüfuzdan salmaq üçün şər və böhtan yaymağa çatır. Ancaq qarşı tərəfdən təpki gələn kimi, "bağışlayın, səhv olub" deyirlər.

Ə.Kərimli AXCP dəstəsini tərk edən A.Məmmədli onun barəsində mətbuata deyib ki, "Onun üçün kimin mühacir olması önəmli deyil. Təki pulunu qazansın. Mənim əlimdə Ə.Kərimli və Q.Zahidin "fəaliyyətləri" sübut edəcək bir çox sənədlər və faktlar var. Yaxın günlərdə hər kəs onları görəcək və Ə.Kərimlinin və onun dəstəsinin hansı işlər gördüyünün şahidi olacaqlar."

Keçmiş AXCP-çi vurğulayır ki, onlar Almaniyada da Azərbaycanın mövqelərinə ləkə gətirəcək əməllərlə məşğul olurlar. Ə.Kərimlinin vaxtilə saxta partiya bileti və "mühacir statusu" satdığı adamlar, indi onun özünü çox ucuz "satırlar."

Beləliklə, fakt budur ki, "siyasi mühacir" məsələsi get-gedə şişir və bu məsələnin görünməyən tərəfləri daha açıq şəkildə üzə çıxır. Ən azından, AXCP sədri Ə.Kərimlinin əli ilə Avropaya köçənlər, artıq onun bütün paxırlarını açıb, ortaya tökürlər. Bu məsələdə R.Nurullayevin sədri olduğu AXCP isə, ciddi şəkildə qarşı tərəfə savaş açıb.

***Rövşən RƏSULOV***

# Mübariz Əhmədoğlu: "Paşinyanın sülhə hazırlığı yubatması İcevan hadisələrinin əsas səbəbidir"

***Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu Ermənistanın baş naziri Nikol Paşinyanın işğalçı dövlətin dağıdıcısı kimi tarixə düşəcəyini bildirib və qeyd edib ki, İcevan Tavuş vilayətinin əsas mərkəzlərindən biridir: "Uzun müddət bu vilayət Azərbaycan Respublikasının Qazax və Tovuz rayonları ilə çox sıx iqtisadi əlaqədə olub.***



Ermənistanın həmin regionlardakı əhalisinin əsas yaşayışı, məhz Azərbaycanın Tovuz və Qazax rayonlarının əhalisinin hesabına təmin olunurdu. İcevan və Tavuş vilayətinə daxil olan digər şəhərlərin və rayonların əhalisi bunu çox gözəl xatırlayırlar. Nikol Paşinyan Dağlıq Qarabağ tənzimlənməsində xalqların sülhə hazırlanmasına razılıq verdikdən sonra Ermənistanın İctimai Televiziyası Tavuş rayonunun Voskepat kəndi ilə Tovuz rayonunun Əlibəyli kəndinin sovet dövründəki xoş əlaqələrinə dair verilişlər nümayiş etdirdi. İcevanda yaxınlarda baş verən sosial qiyamın kökü də o vaxt qoyuldu. İcevanda baş verənlərə təkcə sosial qiyam kimi yanaşmaq düzgün deyil, o, ciddi planlaşdırılmış siyasi təxribat aksiyasıdır. Birinci ağla gələn məqam İcevanın N.Paşinyanın doğma yurdu olmasıdır. N.Paşinyanın öz doğma şəhəri də azərbaycanlılarla çox sıx əlaqədə olub. İndi İcevanda aksiya keçirən polislərin bu aksiyanı 90-cı illərin əvvəlindəki "Həlqə" əməliyyatına bənzətmələri və yerli əhaliyə hücum edərkən, onları "türk" adlandırmaları göstərir ki, bu, sadəcə, bir qrup meşədə odun yığanın neytrallaşdırılması və yaxud zərərsizləşdirilməsi məsələsi deyil. Bu, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində Ermənistanın daxilindəki müxtəlif qruplar arasında gedən mübarizənin nəticəsidir".

Politoloqun sözlərinə görə, N.Paşinyan qeyri-müəyyən mövqeyi ilə İcevan tipli hadisələri daha da sürətləndirəcəkdir: "Bir tərəfdən, xalqları sülhə hazırlamaq, digər tərəfdən, kasıb və perspektivsiz ölkədə hərbi inkişafı prioritet elan etmək bir araya sığan məsələlər deyil. Yerevan Dövlət Universiteti və yaxud digər ali məktəblərin elm, İT sahəsində yaxşı uğurlu nəticələr göstərə bilən xeyli məzunları var. N.Paşinyan bu ali məktəblərin buraxılışında tələbələrlə görüşdən imtina edir, hərbi ali məktəblərin məzunları ilə görüş keçirir və Ermənistanın gələcəyinin, məhz onların üzərində qurulduğunu nümayiş etdirir. Ermənistan-Azərbaycan dövlət sərhədində atəşkəsin pozulması daxili mübarizənin kəskinliyinin əlamətidir. Atəşkəs rejiminin pozulmasının artması daha çox ehtimal edilir".

M.Əhmədoğlu onu da vurğulayıb ki, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində Ermənistanın daxilində gedən mübarizədə N.Paşinyan uduzan şəxsə daha çox bənzəyir: "Onun Dağlıq Qarabağ münaqişəsindəki ikibaşlı, qeyri-müəyyən oyunları, tənzimlənməni yubatması Ermənistanda baş verənləri yeni keyfiyyət məcrasına çıxarıb. O cümlədən, Dağlıq Qarabağ ermənilərinin daxilində baş verənlər heç də, ümumilikdə, Ermənistan dövlətinin və xalqının maraqlarına uyğun deyil. N.Paşinyanın Ermənistan dövlətinin dağıdıcısı kimi tarixə düşmək ehtimalı, getdikcə, daha da artır".

***R.HÜSEYNOVA***

# Bakcell şəbəkəsinin əhatə dairəsi sürətlə artmaqda davam edir

***Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkətinin yüksək keyfiyyətli mobil şəbəkəsinin əhatə dairəsi sürətlə artır.***




Belə ki, istifadəçilər üçün ən yüksək keyfiyyətin təmin olunması istiqamətində aparılan işlərin davamı olaraq təkcə 2019-cu il ərzində Bakcell tərəfindən ölkə ərazisində 700-ə yaxın yeni baza stansiya quraşdırılıb.

Xatırladaq ki, 2300-dən artıq 4G texnologiyalı baza stansiyası sayəsində Bakcell şirkəti əhatə dairəsi və şəbəkə tutumu baxımından ölkədə ən böyük 4G şəbəkəsinə malikdir. Bunun sayəsində Bakcell şirkəti ölkənin bütün bölgə mərkəzlərində yüksək keyfiyyətli və ən sürətli 4G İnternet xidmətlərini təqdim edir. Bakı, Abşeron yarımadası və Azərbaycanın bütün şəhər və rayonlarında (Naxçıvan Muxtar Respublikası və işğal olunmuş ərazilər istisna olmaqla) yaşayan Bakcell abunəçiləri şirkətin təqdim etdiyi yüksək sürətli mobil İnternet xidmətlərindən yararlanmaq imkanına malikdirlər. Hazırda UBakcellFin 4G şəbəkəsi əhalinin 78%, ölkə ərazisinin isə 52%ni əhatə edir.

UBakcellFin təmin etdiyi keyfiyyət və ən yüksək mobil İnternet sürətinə hətta beynəlxalq səviyyədə belə yüksək qiymət verilir. Belə ki, 2018-ci ildə Bakcell UAzərbaycanın ən sürətli mobil şəbəkəsiF adına layiq görülüb. Bu mükafat şirkətə USpeedtestF xidmətinə görə bütün dünyada tanınan UOoklaF şirkəti tərəfindən təqdim edilib. 2017-ci ildə isə mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan UP3 CommunicationsF şirkəti tərəfindən Bakcell şirkəti Azərbaycanda sınaq nəticələrinə görə, ən yaxşı şəbəkə adına layiq görülüb (UBest in TestF).

Həmçinin qeyd edək ki, 2019-cu il ərzində Bakcell şirkəti ölkəmizdə keçirilmiş Novruz festivalı, Formula 1 Azərbaycan Qran Prisi, UEFA Avropa liqasının Final oyunu, Avropa Gənclər Yay Olimpiya Festivalı və digər əhəmiyyətli tədbirlər zamanı ən yüksək keyfiyyətli rabitəni təmin edib.

Müştərilərə göstərilən xidmət keyfiyyətinin daha da təkmilləşdirilməsi məqsədilə Bakcell bundan sonra da ölkənin ən üstün mobil şəbəkəsinin genişləndirilməsi və modernizasiyasına yönəlmiş irimiqyaslı tədbirləri davam etdirəcək.

# Ermənistanın rəğbətli dələduzu - Leyla Yunus

**Təəccüb doğurur? Bəlkə səhv deyirəm. Xeyr! Faktlara əsaslanıb bu fikri söyləyirəm. Özlərini "hüquq müdafiəçisi" adlandıraraq, yalandan Azərbaycanda insan hüquq və azadlıqlarının pozulduğunu dünyaya car çəkərək xidmət etdikləri antiazərbaycançı dairələr qarşısında dividend qazanmaq istəyən Leyla Yunus kimilər hər zaman öz xalqına nifrət edərək, Azərbaycan dilini yalnız söyüş söymək üçün bir vasitə hesab edirlər. Özü də dəfələrlə etiraf edib ki, Azərbaycan dilində ancaq söyməyi bacarır.**



Adını "hüquq müdafiəçisi" qoyan bu canlı həşarət zaman-zaman dələduzluq və cinayət əməlləri (vergi ödəməkdən yayınma, qanunsuz sahibkarlıq, saxta vəsiqələrin hazılanması, yaxud bu cür sənədi satma, saxta dövlət təltifinin, möhürün, blankın hazırlaması, satılması və s.) törətməkdən də çəkinməyib. Bunları 2015-ci ilin avqustunda Leyla Yunusun və onun həyat yoldaşı Arif Yunusun məhkəməsi də sübuta yetirdi. Heç bir şübhə yoxdur ki, Leyla Yunusları hər zaman öz şəxsi, cılız, dar və korporativ mənfəətləri düşündürüb. Onlar bu hərisliklərinə görə, Azərbaycanın milli maraqlarını qurban veriblər. Fəaliyyətinin bütün dövrlərində antimilli, anti-Azərbaycan mövqeyi ilə tanınan L.Yunusu dəstəkləyənlərə sual olunur: siz kimi müdafiə edirsiniz?

Müdafiə Nazirliyinin cəbhəyə göndəriləcək qida məhsullarını bazara çıxararaq satan və bundan əldə etdiyi vəsaiti Almaniyadakı bank hesabına köçürən Leyla Yunusmu? Yoxsa onun erməni dostu Yunus Davidin vasitəsilə 2004-cü ildə Ermənistanın Tədqiqatçı Jurnalistlər Təşkilatından 50.000 (əlli min) avro məbləğində iki dəfə aldığı qrantda sizin də payınız olub? Hələ "xidmətləri"nin müqabilində aldığı külli miqdarda vəsait hesabına Türkiyədə, Çexiyada mülklər, obyektlər aldığını və yüksək qrantları mənimsədiyini demirik.

Vaxtilə Rəhim Qazıyevin dostu kimi "toxunulmazlıq immuniteti" qazanan şeytan xislətli bu qadın Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri işlədiyi müddətdə silahlı qüvvələrin əməliyyat planlarını, cəbhə bölgəsində lentə alınmış foto və video materialları erməni tərəfinə ötürməsi və bunun müqabilində külli miqdarda pul əldə etməsi də heç kəsə sirr deyil.

Buradan aydın olur ki, hüquq müdafiəçisi adı ilə maskalanmış Leyla Yunus antimilli, anti-Azərbaycan təbliğatları, erməni lobbisinin sifarişlərini yerinə yetirməklə respublikamızda təxribat törətmək, qarşıdurma yaratmaq, dələduzluq və Vətənə xəyanətlə məşğuldur.

### Siyasi məhbus, yoxsa məhbuslarla siyasət?

Bəli, illər davam etsə də, bu şeytan xislətli Leyla Yunus niyyətindən əl çəkməyərək, "siyasi məhbus" "layihəsi" ilə siyasətdə növbəti "irəliləyiş" etmək istədi. Və "siyasi məhbus" siyahısını hazırlamaqla, özünü az qala Oskar Şindler sayaraq terrorçuluq, qətldə suçlanaraq həbs edilənləri "siyasi məhbus" adı ilə Avropanın müvafiq qurumlarına da saydırmağa çalışaraq, Azərbaycan dövlətinə və millətinə xəyanətdə günahlandırılmış adamları daxil etməklə, "siyasi biznes"ini yaratmağa çalışdı və bununla da, növbəti maraq alverini həyata keçirməyə başladı. Və erməni lobbisinin dəmtutanı Leyla Yunus Ermənistanın uğurlarına sevindiyini zənn etdi.

Millət vəkili Elşən Musayev bildirib ki, L.Yunus kimilər Azərbaycanın deyil, Ermənistanın uğurlarına seviniblər: "L.Yunus tək deyil, bu gün Azərbaycanda çoxlu sayda ona bənzərlər var: "Xarici dairələr həmişə Azərbaycanda L.Yunuslar yetişdirməyə çalışıb. Biz yeni L.Yunusların yetişməməsi üçün həssas olmalıyıq. Belələri Azərbaycana qarşı ermənidən daha betərdir".

### Xainlərə güzəşt olmamalıdır

Bəlkə də, belə sərt deyilən söz kimlərdəsə qıcıq yarada bilər. Amma belələrinin çörəyi dizinin üstündədir. Bir də satqın və Vətən xainindən nə gözləmək olar? L.Yunus kimilər dövlət tərəfindən əfv olunsalar da, yenə də öz əxlaqsızlıqlarını nümayiş etdirirlər. Çünki L.Yunusun mahiyyəti və xisləti budur. Bu adamın genetik erməni bağlılığı var və demək olar ki, həmin genetika əsl gerçəyi ədaləti, azərbaycanlı-erməni qarşıdurması fonunda faktiki reallığı inkar etmək gücündədir.

Belələri bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır.

*Rəfiqə HÜSEYNOVA*

# "REAL"-da parçalanmalar istefalarla nəticələnir

## *Partiyanın sıraları seyrələmək üzrədir*

***Hərəkatdan partiyaya çevrildiyi bəyan edilən "REAL"-ın daxili problemləri səngimək bilmir. Belə ki, son bir neçə ayda adıçəkilən siyasi təşkilatda ciddi şəkildə parçalanma hökm sürür və istefalar baş verir. İstefa verənlərin əksəriyyəti müxtəlif adda ittihamlar irəli sürərək, oradan uzaqlaşırlar. Məhz fərqli düşünənlər "REAL"-dan ayrılmalarını ən çox belə əsaslandırırlar ki, İ.Məmmədovun qrupu qurum daxilində öz diktəsini etməyə çalışır, "REAL"-ı şəxsiləşdirərək, mənimsəməyə cəhd göstərir. Söz yox ki, burada əsas olaraq, idarə heyətinin üzvü Erkin Qədirli, qurumun həmtəsisçisi Natiq Cəfərli, eləcə də, məclis üzvü Azər Qasımlı göstərilir. O cümlədən, digər məclis üzvləri - Ərəstun Baxşəliyev, Nəriman Mücahid və Elmin Həmzənin sıravi üzvlərdən qruplaşma yaratmaq cəhdləri barədə iddialar irəli sürülür.***

### İstefaların səbəbləri - qruplaşmalar, diktələr və avtoritarçılıq

Hələ bir müddət qabaq "REAL" üzvlərindən olan Cavid Qara istefasının səbəblərini tam açıqlamasa da, dediklərindən belə nəticəyə gəlmək olar ki, onun özü də daxili qruplaşmalardan və avtoritarçılıq meyillərindən bezərək, qurumun sıralarını tərk edib. "2012-ci ildən "REAL"-ın üzvüyəm" deyə sosial şəbəkədə yazmış C.Qara xatırlatmışdı ki, bu quruma üzv olanda, İ.Məmmədov həbs olunmamışdı: "İndiyə qədər əlimdən gələn köməyi etmişəm. Bu günlərdə bu barədə çox fikirləşdim. Artıq heç bir partiya mənsubiyyətimin olmasını istəmirəm".

Beləliklə, bu istefanın əsas səbəbinin, məhz İ.Məmmədovun yoxluğu, həmçinin, qurumdaxili qarşıdurmalarla, intriqalarla əlaqələndirmək kifayət qədər mümkündür.

### Rövşən Ağayevin istefasının səbəbi: "Hər bir kəs gərəkli ola biləcəyi yerdə olmalı, fayda verə biləcəyi işin qulpundan yapışmalıdır..."

Digər bir səsli-küylü istefa isə, "REAL"ın idarə heyətinin üzvü Rövşən Ağayevlə bağlıdır. "2011-ci ildən bəri idarə heyətinin üzvü olduğum "REAL" hərəkatından ayrılmaqla bağlı qərar vermək mənim üçün çox çətin oldu" deyə qeyd edən R.Ağayev də istefasının səbəblərini açıqlayarkən, hər kəsin öz yerində olmadığını bildirib: "Səbəbləri haqda çox qısa bunları deyəcəm. Təşkilatın idarə heyətinin hər bir üzvü "REAL"-ı öz hədəflərinə yaxınlaşdırmaq üçün daha fədakar olmalı idi. Bizə qoşulan üzvlərin, eləcə də, təəssübkeşlərin idarə heyətindən gözləntisi də bu idi. Təəssüf ki, müxtəlif səbəblərdən, idarə heyətinin bir üzvü kimi, mən vəzifəmin öhdəsindən gələ bilmədim. Bu qərarı qəbul edərkən yanaşmam bu olub ki, hər bir kəs gərəkli ola biləcəyi yerdə olmalı, fayda verə biləcəyi işin qulpundan yapışmalıdır..."

Göründüyü kimi, əsas vurulan eyham idarə heyətinin yarıtmazlığı, o cümlədən, uğursuzluqlarıdır.

### "REAL"-da "at oynadan" Erkin Qədirlinin vəzifədən kənarlaşdırılmasına İlqar Məmmədov həbsxanadan "dobro" vermişdi

Lakin illər öncə də, bu qurumda çaxnaşmalar və qarşıdurmalar yaşanıb. Misal üçün, xatırlada bilərik ki, 2014-cü ilin mayında İ.Məmmədov həbsdə olarkən, hərəkat daxilində baş verən qarşıdurmalar nəticə etibarilə idarə heyətinin, üzvü E.Qədirlinin adı ilə bağlı olmuşdu. Məhz həmin vaxt E.Qədirlinin son müsahibələri və sosial şəbəkələrdə yaydığı ifadələr, həmçinin, həmin ifadələrə verrdiyi izahlar müzakirə olunaraq, ciddi yanlışlıqlar kimi qiymətləndirilmişdi. O cümlədən, iclasın protokolundan da göründüyü kimi, qeyd olunmuşdu ki, əvvəlki iclaslarda edilmiş şifahi xəbərdarlıqlara baxmayaraq, E.Qədirli yanlışlıqlarını düzəltməyə əməli cəhd göstərməyib. "Ona görə də, təklif olundu ki, Erkin Qədirli "REAL" hərəkatının məclis başqanı və idarə heyətinin üzvü vəzifələrindən çıxarılsın" deyə sözügedən protokolda bildirilmişdi. Həmçinin, xüsusilə, qeyd edilmişdi ki, bu qərar verilməmişdən öncə, İ.Məmmədov həbsxanaya göndərilmişdi və o da, öz növbəsində, bu qərarla razılaşdığını demişdi.

Beləliklə, həmin hadisələr bu gün də təkrar olunmaqdadır. Artıq səhih məlumatlara görə, "REAL"-ı növbəti istefalar gözləyir. Bu istefalar partiyanın, qısa zamanda, iflasa uğrayacağından xəbər verməkdədir.

*Rövşən RƏSULOV*

# Ali təhsil müəssisələrinə ixtisas seçimi başlanıb

***Dövlət İmtahan Mərkəzi (DİM) Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elan edir.***



DİM-dən AZƏRTAC-a bildirilib ki, ixtisas seçimi iyulun 24-dən avqustun 6-sı saat 23.59-dək internet vasitəsilə aparılır. Abituriyentlər qəbul olmaq istədikləri ixtisasları "Abituriyent" jurnalının 4-cü nömrəsindən seçib, onların kodlarını DİM-in saytının müvafiq səhifəsində "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nə daxil edib təsdiqləməlidirlər. Abituriyentlər ali təhsil müəssisələrinin imtahan verdiyi ixtisas qrupuna aid olan 15-dək ixtisas kodunu qeyd edə bilərlər. I, II, III, IV ixtisas qruplarından hər hansı biri və V ixtisas qrupu üzrə DİM-in müəyyən etdiyi tələbləri ödəyən abituriyentlər hər iki qrupun ixtisaslarını seçə bilərlər. Həmçinin I-IV ixtisas qruplarından iki müxtəlif ixtisas qrupu üzrə imtahan verən abituriyent müvafiq müsabiqə şərtlərini ödədiyi halda hər iki ixtisas qrupu üzrə müsabiqədə iştirak edə bilər. Eyni ixtisas qrupu (I-IV qruplardan biri) üzrə iki dəfə imtahan verən abituriyentlər isə müsabiqədə hansı imtahanın nəticəsi ilə iştirak edəcəyini seçməlidirlər.

# Qeyri-hökumət təşkilatları və insan hüquqları

***Qeyri-hökumət təşkilatları insan hüquqları sahəsində vacib aktorlar sayılır. Həqiqətən də, müasir cəmiyyətdə bunlar, sadəcə, vətəndaş cəmiyyətinin ünsürü deyil, eyni zamanda, insan hüquqlarının yaşanması və qorunmasında zəruri mexanizm kimi qarşımıza çıxır. Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasının Qanununda "qeyri-hökumət təşkilatı" anlayışına ictimai birliklər və fondlar daxildir. Bu qanun, hüquqi şəxslər kimi, qeyri-hökumət təşkilatlarının yaradılmasını, fəaliyyətini, yenidən təşkil edilməsi və ləğv edilməsi qaydalarını, qeyri-hökumət təşkilatlarının fəaliyyətini, idarə olunmasını, dövlət hakimiyyəti orqanları ilə münasibətlərini müəyyən edir.***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Bu qanun siyasi partiyalara, həmkarlar ittifaqlarına, dini birliklərə, yerli özünüidarə orqanlarına, habelə, bu təsisatlara məxsus olan funksiyaların həyata keçirilməsi məqsədi ilə yaradılan qurumlara və başqa qanunlarla tənzimlənən digər qeyri-hökumət təşkilatlarına şamil edilmir. Qeyri-hökumət təşkilatı ictimai birlik təsis sənədlərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşmiş bir neçə fiziki və hüquqi şəxsin təşəbbüsü ilə yaradılmış könüllü, özünü idarə edən, öz fəaliyyətinin əsas məqsədi kimi, gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvləri arasında bölməyən qeyri-hökumət təşkilatıdır. Fond üzvləri olmayan, bir və ya bir neçə fiziki və hüquqi şəxslər tərəfindən könüllü əmlak haqqı əsasında təsis edilən və sosial, xeyriyyə, mədəni, təhsil və ya digər ictimai-faydalı məqsədləri daşıyan qeyri-hökumət təşkilatıdır. Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə qadağan olunmamış məqsədlər üçün yaradıla və fəaliyyət göstərə bilər. Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin və bələdiyyələrin seçkilərində iştirak edə bilməz, siyasi partiyalara maliyyə və başqa maddi yardım göstərə bilməz. Azərbaycan Respublikasının seçki qanunvericiliyinə uyğun olaraq, qeyri-hökumət təşkilatları (xarici fiziki və hüquqi şəxslər, nizamnamə kapitalında xarici fiziki və hüquqi şəxslərin payı 30 faizdən artıq olan Azərbaycan Respublikasının hüquqi şəxsləri tərəfindən qrant alan və ya başqa cür maliyyələşdirilən qeyri-hökumət təşkilatları istisna olmaqla) Azərbaycan Respublikasında keçirilən prezident seçkiləri, Milli Məclisə və bələdiyyələrə seçkiləri müşahidə edə və "exit-poll" həyata keçirə bilərlər. Xarici hüquqi şəxslər Azərbaycan Respublikası Prezidentinin seçkiləri, Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər və bələdiyyə seçkiləri zamanı "exit-poll"a əlaqədar tədbirlərdə, yalnız Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatları ilə birlikdə iştirak edə bilərlər. Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının qanunlarında və öz nizamnaməsində nəzərdə tutulmuş qaydada hüquqi-normativ aktların təkmilləşdirilməsi təklifləri ilə çıxış edə bilər.

QHT-lər, birinci növbədə, birləşmə azadlığının təzahürüdür. Bunların əhəmiyyətinə hələ 18-ci əsrdə Alexis de Tocqueville toxunmuşdu, ona görə, dərnəklər və digər vətəndaş birlikləri demokratiyanın qorunub-saxlanması üçün zəruri idi. QHT-lər birləşmə azadlığının təzahürü olsa da, əlbəttə ki, onların hamısı insan hüquqları sahəsində fəaliyyət göstərmir. Bununla belə, idman sahəsində yaradılmış bir dərnək belə, həvəskarları bir məqsəddə birləşdirərək, onlara, geniş mənada, öz azadlıqlarını yaşamağa imkan verir. Eyni zamanda, bunlar vətəndaş cəmiyyətini möhkəmləndirir, ictimai rəyin formalaşmasına və güclənməsinə xidmət edirlər. Bunlar olmadan isə, insan hüquqlarının reallaşması mümkün deyildir.

İnsan hüquqları sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları milli və beynəlxalq təşkilatlar olaraq, iki qrupa ayrılır. İnsan hüquqlarının reallaşmasında hər iki qrupdan olan təşkilatların özünəməxsus əhəmiyyətli yeri vardır. Beynəlxalq insan hüquqları təşkilatlarına -"Transparency İnternational", "Freedom House" kimi geniş sahəli təşkilatlar daxildir. Habelə, bunlar dar sahəli də ola bilər, məsələn, media azadlığını qoruyan "Sərhədsiz Reportyorlar" kimi. Beynəlxalq insan hüquqları təşkilatlarının missiyaları müxtəlifdir. Bəzən bunlar konkret bir ölkədəki insan hüquqları vəziyyətinə monitorinq (nəzarət) edir və oradakı pozuntuları üzə çıxarır, bunları ictimaiyyətin diqqətinə çatdırır. Bəzi təşkilatlar isə, milli insan hüquqları QHT-lərinə patronaj fəaliyyətini həyata keçirir, bunların sayı daha azdır. Hər iki funksiyanı birləşdirən beynəlxalq insan hüquqları QHT-ləri də mövcuddur.

Bunlardan bəziləri, yuxarıda adını çəkdiyimiz "Transparency İnternational", "Freedom House" kimi, illik hesabatlar hazırlayır. Bu hesabatlarda ölkələrin adı çəkilərək, oradakı insan hüquqlarının mövcud vəziyyəti qiymətləndirilir. Bunlar qeyri-rəsmi olmaqla bərabər, BMT və AŞ kimi müxtəlif rəsmi qurumlar tərəfindən nəzərə alınır. Habelə, Qərb dövlətləri bu hesabatlara istinad edir. Buna görə də, belə hesabatlar riyakar hökumətlərin maskalarını yırtan mahiyyətə malikdir. Burada bir məsələni də qeyd etmək yerinə düşər. Dövlətlər bir-birinin daxili işlərinə qarışmamalıdır. Lakin insan hüquqları məsələsi, artıq bir dövlətin daxili məsələsi sayılmır və bir ölkədə nəzərəçarpacaq dərəcədə insan hüquqları pozuntuları baş verirsə, beynəlxalq təşkilatlar və digər dövlətlər bu məsələyə müdaxilə edə bilər. Bu baxımdan, QHT-lərin hesabatları, sadəcə, avtoritar dövlətlərin imicini aşağı salmır, eyni zamanda, onlara qarşı irad tutmaq üçün bir əsas təşkil edir.

Milli QHT-lərin varlığı da ölkədə insan hüquqlarının yaşanması üçün olduqca zəruridir. Bunların fəaliyyəti müxtəlif məqsədlərə yönəlir. Bir tərəfdən, insan hüquqları sahəsində maarifləndirmə işini həyata keçirir, müxtəlif təbəqələrə müvafiq təlimlər həyata keçirir - hüquqşunaslara, hüquq-mühafizə işçilərinə, tələbələrə, azlıq mənsublarına, siyasi partiyalara və s. Digər tərəfdən, bunlar ölkədə həqiqi vəziyyətin necə olduğunu üzə çıxarır, insan hüquqları pozuntularının səbəblərini aşkar edib, ictimaiyyətə çatdırır. Habelə, bu təşkilatlar qanun lahiyələri təqdim etməklə, ictimai debatlar təşkil etməklə, siyasi vasitəçilik fəaliyyətini həyata keçirmək kimi tədbirlərlə, mövcud vəziyyətin düzəldilməsi istiqamətində də fəaliyyət göstərirlər. Beynəlxalq aktyorlar, bunları nəzərə alaraq, milli QHT-lərə əhəmiyyətli maliyyə və təşkilati dəstəklər təmin edir. Bu səylər, bir tərəfdən, vətəndaş cəmiyyətini möhkəmlətməyə, digər tərəfdən isə, insan hüquqları institutlarını təminat altına almağa yönəlir.

İnsan hüquqları sahəsində fəaliyyət göstərən QHT-lər, eyni zamanda, qeyri-siyasidir. Onların qeyri-siyasi olması, o mənaya gəlmir ki, siyasi fəaliyyətdən tamamilə uzaqdırlar. Qeyri-siyasilik QHT-lərin hər hansı siyasi partiyanı dəstəkləməməsi, siyasi əqidəyə qulluq etməməsi və iqtidar olma yarışında iştirak etməməsi mənasına gəlir. Mümkündür ki, bir QHT siyasi partiyaların maliyyə müstəqilliyinin artırılması üçün onlara xüsusi təlimlər keçirsin. Yaxud da seçkilər ərəfəsində vətəndaşların siyasi aktivliyinin artırılması üçün tədbirlər təşkil etsin.

QHT-lərin fəaliyyətinə şəffaflıq hakim olmalıdır. Həqiqətən də, onların üstünə qoyulan vəzifənin əhəmiyyəti, dövlət orqanlarında olduğu kimi, onların da fəaliyyətində hesabatlılığı və şəffaflığı zəruri edir. Bu səbəblə QHT-lərin, xüsusilə, maliyyə hesabatlarını təqdim etmələrinə, avtoritarluq kimi baxılmamalıdır.

Bunların rəsmi qurumlara təqdim edilməsi ilə yanaşı, internet saytlarında yerləşdirilməsi və ictimaiyyətə açıq olması da bu məqsədə xidmət edir. Demokratik rejimlər əhəmiyyətli töhfələrinə görə, qeyri-hökumət sektorunun inkişafını dəstəkləyir və stimullaşdırırlar. Belə hakimiyyətlər dərk edirlər ki, cəmiyyətdə müxtəlif maraq qruplarını təmsil edən QHT-lərin dəstəyi olmadan güclü ola bilməzlər. Bu, onunla izah edilir ki, əksər QHT-lərin qarşısına qoyduğu məqsəd və vəzifələr, son nəticədə, hakimiyyət orqanlarının həyata keçirməli olduğu vəzifələrlə uyğunluq təşkil edir. Bunlar dövlət və cəmiyyət üçün mühüm əhəmiyyət kəsb edən bir çox sosial, iqtisadi, hüquqi, mədəni və s. məsələlərin həlli ilə bağlıdır. QHT dövlət orqanlarına kömək edir, onların həyata keçirməli olduqları bəzi məsələlərin həllinə öz töhfələrini verirlər. Faktiki olaraq, dövlət və vətəndaş cəmiyyəti vahid mexanizmin bir-birindən asılı olan tərkib hissələri kimi çıxış edir və onların əməkdaşlığı zəruri tələbata çevrilir.

Müxtəlif sosial qrupların və ya fərdlərin cəmiyyətin inkişafına yönələn təşəbbüsləri dövlət tərəfindən də adekvat qəbul edilir və onun inkişafını təkmilləşdirir. Vətəndaş cəmiyyəti dövlətlə dialektik vəhdətdə mövcuddur və fəaliyyət göstərir. Demokratik rejimlərdə, o, dövlətə çox yaxındır və onunla qarşılıqlı fəaliyyətdədir, avtoritar və totalitar rejimlərdə isə, rejimə qarşı passiv və ya aktiv müxalifətdə olur.

Dövlət vətəndaş cəmiyyətinin həyati fəaliyyətini xeyli məhdudlaşdıra bilər, lakin onu tamamilə dağıda və ləğv edə bilməz. Çünki o, dövlətə münasibətdə ilkindir və onun təməlini təşkil edir.

QHT-lər ölkənin ictimai-siyasi həyatında iştirak etmək, öz fərdi və kollektiv məqsəd, istək və arzularını daha sərbəst şəkildə ifadə etmək və cəmiyyətin inkişafına töhfələrini vermək nöqteyi-nəzərindən digər vətəndaş birlikləri ilə müqayisədə vətəndaşlara daha geniş imkanlar verir.

Dünyanın bir çox ölkələrində QHT-lər vətəndaş cəmiyyətinin vacib elementi və ölkənin inkişaf prosesində vacib qurumlardan biri hesab edilir. Qeyri-hökumət təşkilatları müasir dövrdə özünü demokratik proseslərin inkişafının səmərəli iştirakçısı kimi göstərir. Bu təşkilatlar şəffaflıq, effektivlik, açıqlıq, hesabatlılıq kimi yaxşı idarəetmə mexanizmlərinin işləkliyini təmin etməkdə günbəgün öz əhəmiyyətini artırır. Onlar cəmiyyətdə vətəndaş fəallığının artmasına yardım edir, dövlət və yerli hakimiyyət orqanlarında qərarların qəbul olunması prosesinə qeyri-siyasi vasitələrlə təsir edirlər.

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*

# səs

Son səhifə — 25 iyul

## Diqqət: Uşaqların yuxu saatları nəzarətdə saxlanılsın!



Yuxu beyin fəaliyyəti normasının minimal səviyyəyə enməsi və ətraf mühitə olan reaksiyalarının azalması ilə müşayiət olunan təbii fizioloji prosesdir. Yuxu insan orqanizmində gün ərzində sərf olunan enerjini bərpa edir, stresi azaldır və sağlamlığı qorumağa kömək edir. Araşdırmalara əsasən insan həyatının üçdə bir hissəsi yuxuda keçir.

Yuxu saatları yaş qruplarına uyğun olaraq dəyişir. Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi, psixologiya üzrə fəlsəfə doktoru Çimnaz Verdiyeva AZƏRTAC-a deyib: "Uşaqların gün ərzində 8-10 saat yatmağı vacib şərtdir. Məktəbyaşlı uşaqlarda 8-9 saat yuxu vaxtı normaya uyğundur, eyni zamanda, onlarda gərginliyin aradan qalxmasına səbəb olur".

Körpələrin yuxu rejimi onların sağlam və tez böyüməsinə kömək edir. Ona görə də uşaqların yuxu saatlarını daim nəzarətdə saxlamaq lazımdır. 3 yaşa qədər olan balacaların 10-12 saat yatmağı məsləhətdir. Erkən uşaqlıq dövrü minimal fiziki fəaliyyət və daha çox yuxu müddəti ilə, böyüdükcə aktivliyin artması və yuxu müddətinin qısalması ilə xarakterizə olunur. Körpələrlə yanaşı, kiçik məktəblilərin də yuxu qaydası valideynlərin diqqət mərkəzində olmalıdır. Həm tibbi, həm də psixoloji cəhətdən insan orqanizmi üçün faydalı olan yuxu saatlarının düzgün və normalar əsasında bölünməsi vacibdir.

## Elm adamları: Əl-ələ tutmaq ağrını azaldır



Amerikada aparılan bir araşdırmaya görə, cütlüklər əl-ələ tutmaqla bir-birlərinin fiziki ağrılarını azalda bilirlər.

Elm adamları toxunmaqla keçən anlaşılma hissinin ağrını azaldan kimyəvi maddələrin istehsalını artırdığını, əl-ələ tutan cütlüklərin ürək ritmlərinin və nəfəs almalarının bir müddət sonra sinxron təkrarlandığını ortaya qoyub. Ailem.az bununla bağlı maraqlı məlumatları diqqətinizə çatdırır. Sevdiyimiz şəxsin əlini tutmaq, dəriyə basılan isti bir dəmirin ağrını uyuşduracağı kimi bir təsir göstərir. Elm adamları bu vəziyyətin özünü onun yerinə qoyma hissindən qaynaqlandığını bildirir.

### Əl-ələ tutmaq ağrını necə azaldır?

Bu tapıntının ilham qaynağı həkim Pavel Goldsteinin qızıdır. 4 il əvvəl həyat yoldaşını qızını dünyaya gətirən zaman rastlaşdığı hadisə onu bu araşdırmanı aparmağa sövq edib: "Yoldaşımı rahatlatmaq üçün nə edə biləcəyimi düşünürdüm. Uzanıb əlini tutdum və işə yaramış kimi göründü. Daha sonra bunu laboratoriya şəraitində test etmək istədim".

Beləliklə, Goldstein beyinlərin cütləşməsinin ağrı üzərində təsirinə dair ilk araşdırmanı həyata keçirir. Araşdırma "şəxslərarası sinxronizasiya" işlərinin bir hissəsi olaraq aparıldı və nəticələri ABŞ Beynəlxalq Elmlər Akademiyasının "PNAS" adlı mətbu orqanında yayımlanıb. Goldstein bildirir ki, ağrı cütlüklər arasındakı sinxronu pozur, amma toxunmaq bunu geri gətirir.

### Ağrını yüzdə 34 faiz daha az hiss etdilər

Daha sonra həkim 23-32 yaşlı 22 cütlük arasında araşdırma aparıb. Partnyorları əllərini tutarkən, ya da fiziki təmas olmadan yanlarında oturarkən qadınların qollarına isti bir dəmir parçası toxundurulur. Partnyorunun əlini tutan qadınlar ağrını təxminən yüzdə 34 faiz daha az hiss edib. Araşdırma qrupunun qənaətinə görə, ağrının azalmasının böyük səviyyədə duyğusal yaxınlıqla əlaqəli olduğu düşünülür: "Partnyorun özünü onun yerinə qoyma hissi nə qədər güclüdürsə, ələ tutmağın ağrıkəsici təsiri də o qədər güclü olur".

## Ronaldo 1 reklamı 975 min dollara paylaşır!



***"Hopper" portalı "İnstaqram"da ən bahalı reklama sahib idmançıların reytinqini dərc edib. Qol.az-ın məlumatına görə, siyahının ilk pilləsində Portuqaliya millisinin və "Yuventus"un futbolçusu Kriştiano Ronalo qərarlaşıb. Onun hesabında reklam postu 975 min dollar dəyərindədir.***

İkinci pillədə 722 min dollarla Neymar (Braziliya, PSJ), üçüncü pillədə 648 min dollarla Lionel Messi (Argentina, "Barselona") qərarlaşıb.

İlk onluqda futbolçulardan həmçinin, İngiltərə millisinin sabiq yarımmüdafiəçisi Devid Bekhem (356 min dollar, 4-cü yer), Braziliya millisinin sabiq oyunçusu Ronaldinyo (256 min dollar, 6-cı), Uels yığmasının və "Real"ın hücumçusu Qaret Beyl (218 min dollar, 7-ci), "Los Anceles Qelaksi"nin hücumçusu Zlatan İbrahimoviç (200 min dollar, 8-ci), Uruqvay millisinin və "Barselona"nın futbolçusu Luis Suares (184 min dollar, 10-cu) qərarlaşıb.

## Messi cəzalandırıldı!



Cənubi Amerika Futbol Konfederasiyası (CONMEBOL) Argentina millisinin kapitanı Lionel Messini cəzalandırıb. "AS" nəşrinin yaydığı xəbərə görə, buna onun qırmızı vərəqə aldığı Çili ilə Amerika kubokunun 3-cü yer uğrunda oyunundan sonra konfederasiyanı korrupsiyada ittiham etməsi səbəb olub. 32 yaşlı hücumçu yarışın təşkilatçılarını Braziliyanının turniri qalibi olmaq üçün çalışdıqlarını söyləyib.

Bu açıqlamasına görə o, 1 oyunluq cəzalandırılıb. Beləliklə, Messi DÇ-2022-nin seçmə mərhələsinin ilk matçında komandasına kömək edə bilməyək. Bundan başqa, Argentina millisinin kapitanı 1500 dollar məbləğində cərimələnib. Qeyd edək ki, Messi açıqlamasına görə CONMEBOL-dan üzr istəmişdi. Onun üzr istəməyəci təqdirdə, 2 il millinin oyunlarından kənarlaşdırıla biləcəyi iddia olunurdu.

## "Bavariya"da prezident dəyişikliyi olacaq



"Bavariya" klubunda prezident dəyişikliyi olacaq."Bild" nəşrinin yazdığına görə, Münhen təmsilçisinin hazırkı prezidenti Uli Heness vəzifəsindən ayrılır. Onun bu ilin oktyabr ayındakı seçkidə namizəd olmayacağı bildirilib. Artıq Henessi əvəzləyəcək şəxs də məlumdur. "Bavariya"nın növbəti prezidenti "Adidas" şirkətinin İdarə Heyətinin sədri, həmçinin hazırda klubun Nəzarət Şurasında yer alan Herbert Hayner olacaq. Qeyd edək ki, U. Heness ilk dəfə 2009-cu ildə "Bavariya"nın prezidenti seçilib. 2014-cü ildə vergidən yayındığı üçün həbs olunan futbol funksioneri vəzifəsindən məcburi kənarlaşdırılmışdı. 2 il sonra isə yenidən prezident olmuşdu. Heness ümumilikdə isə 40 ildir Münhen klubunda çalışır.

## "Arsenal" - "Neftçi" oyununda anşlaq olacaq?



Futbol üzrə UEFA Avropa Liqasının 2-ci təsnifat mərhələsində bu gün keçiriləcək "Arsenal" (Tula) - "Neftçi" oyununda tribunaların tamamilə dolacağı gözlənilir. Bu barədə Tula təmsilçisinin rəsmi açıqlamasında məlumat verilib. Bildirilib ki, "Arsenal" stadionunda olacaq matç üçün satışa çıxarılan biletlər sürətlə satılır, oyun günü anşlaq olacağı gözlənilir.

Qeyd edək ki, 20 min azarkeş tutumuna malik "Arsenal" stadionunda keçiriləcək görüş Bakı vaxtı ilə 21:00-da başlayacaq. Cavab oyunu isə 1 həftə sonra paytaxtımızda olacaq.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600